Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 128 (7855) CÜMƏ, 8 iyun 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik





# 30 rayon, 45 aqropark

## Prezident İlham Əliyevin tövsiyəsi ilə aqrar sektorda yaradılan modern təsərrüfatçılıq mexanizmləri artıq real nəticə verir

**Son illər Azərbaycanda kənd təsərrüfatına dövlət dəstəyinin gücləndirilməsi, müasir çağırışlara uyğun strateji hədəflərin müəyyən edilməsi keyfiyyətcə yeni mərhələyə keçidin təməlini qoyub. Aqrar sektora güzəştli kreditlərin, subsidiyaların verilməsi, vergi güzəştlərinin tətbiqi, aqrolizinq xidmətlərinin göstərilməsi istiqamətində atılan mühüm addımlar yeni iqtisadi və mülkiyyət münasibətləri formalaşdırıb.**

Prezident İlham Əliyevin bu sahənin inkişafı ilə bağlı imzaladığı mühüm fərman və sərəncamlar, həmçinin dövlət başçısının həyata keçirilən proseslərə şəxsən nəzarət etməsi aqrar sektorun dinamik inkişafı üçün əlverişli zəmin yaradıb. Bu il kənd təsərrüfatında yaranmış 4,2 faizlik artım da bunu bir daha təsdiqləyir.

### İstehsal, qablaşdırma, satış və logistika bir mərkəzdə

Hazırda hökumət qeyri-neft sektorunun inkişaf bazalarından biri kimi aqrar-sənaye sektoruna daha böyük üstünlük verir. Ölkənin inkişafının əsas sütunlarından biri aqrar sektor hesab olunur. Bu gün ölkəmizdə əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi, aqrar sahədə ixrac potensialının artırılması məqsədilə müasir aqroparklar və iri fermer təsərrüfatları yaradılır.

Kənd təsərrüfatının yeni infrastrukturu hesab olunan aqroparkların əsas işi məhsulun istehsalı, qablaşdırılması, logistikası və satışından ibarətdir. Yəni, müasir aqroparklar ərzaq təhlükəsizliyi və kənd yerlərinin inkişaf etdirilməsi ilə əlaqədar qarşıda duran problemlərin həlli üçün modern təsərrüfatçılıq mexanizmidir. Aqroparklar həmçinin müxtəlif sahəvi strukturları özündə birləşdirir. Buraya kənd təsərrüfatı maşınqayırması, kimya, tikinti, bitkiçilik, heyvandarlıq, yeyinti, nəqliyyat, ticarət və s. aiddir. Başqa sözlə, aqropark dedikdə, qarşılıqlı əlaqədə olan kənd təsərrüfatı və sənaye müəssisələrinin birlikdə fəaliyyəti nəzərdə tutulur.

### Tarladan süfrəyədək...

Regionlarda müasir tələblərə cavab verən aqroparkın yaradılması bir neçə vacib məqamı özündə birləşdirir. İlk növbədə, bu cür layihələrin həyata keçirilməsi kənd təsərrüfatının vacib sahələrinin inkişafına təkan verir, müxtəlif sahədə elmi yeniliklərin tətbiqinə şərait yaradır.

Digər tərəfdən kənd təsərrüfatı məhsullarının torpaqdan istehlakçının süfrəsinədək bütün mərhələlərini özündə əks etdirir ki, bu da həmin məhsulların istehsalına çəkilən xərclərin, eləcə də maya dəyərinin aşağı düşməsinə və keyfiyyətin yüksəlməsinə imkan verir. Ən əsası isə bu cür müəssisələrin fəaliyyətə başlaması rayonların iqtisadi imkanlarını artırmaqla yeni iş yerlərinin yaranmasına, regionların özünü maliyyələşdirməsinə, mövcud iqtisadi potensialdan daha səmərəli istifadə edilməsinə səbəb olur.

### Dəyəri 1,4 milyard manat olan 45 aqropark

Ölkəmizdə ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsində xüsusi əhəmiyyətə malik olan aqroparkların yaradılması işləri davam etdirilir. Belə ki, hazırda respublikanın 30 rayonu üzrə ümumi dəyəri 1,4 milyard manat olan 45 aqropark yaradılır.

İndiyə qədər dövlət dəstəyi hesabına aqroparkların yaradılması üçün ümumilikdə 311,8 milyon manat, o cümlədən su, qaz, elektrik və yol çəkilişi, meliorativ tədbirlər və digər infrastruktur işlərinə 204,2 milyon manat dövlət əsaslı investisiya qoyulub. Ümumi dəyəri 400 milyon manatdan çox olan 15 aqroparkın yaradılmasına 110 milyon manatadək dövlətin güzəştli kreditləri ayrılıb və 14 aqropark üzrə dəyəri 565,5 milyon manat olan 24 layihəyə investisiya təşviqi sənədi verilib.



Ölkəmizdə 45 aqroparkın yaradılması isə o deməkdir ki, yaxın gələcəkdə aqrar sektorda böyük canlanma, innovativ inkişafın şahidi olacağıq. Bu həm də ərzaq təhlükəsizliyi məsələsinin həllinə öz müsbət təsirini göstərəcək və idxaldan asılılıq daha da azalacaq.

*Ardı 3-cü səh.*

# "Sahil" ən müasir səviyyəli təmir və yenidənqurmadan sonra istifadəyə verildi

**İyunun 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Metropoliteninin "Sahil" stansiyasının əsaslı təmir və yenidənqurmadan sonra açılışında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin sədri Zaur Hüseynov "Sahil" stansiyasında aparılan əsaslı təmir və yenidənqurma işləri barədə dövlət başçısına ətraflı məlumat verdi. Qeyd olundu ki, bu stansiyada işlər təyin edilmiş müddətdən xeyli əvvəl yekunlaşdırılıb. Stansiyanın yerüstü vestibülündə müvafiq təmir, yenidənqurma işləri görülüb. Divarlar müasir tələblərə uyğun yenilənib və ümumi memarlıq üslubuna uyğunlaşdırılıb, vestibülün estetik görkəmi dəyişib. Tavanda ümumi memarlıq-dizayn tərtibatını tamamlayan müasir işıqlandırma sistemi quraşdırılıb. Stansiyanın infrastrukturu, o cümlədən stansiya yolları, platforma və platformaaltı səviyyələrdə yerləşən texniki sahələr dövrün ən yeni standartlarının tələbləri nəzərə alınaraq yenidən qurulub və daha funksional olub. Mühəndis-texniki qurğularda əsaslı yenidənqurma işləri aparılıb. Stansiyada hərəkətin tənzimlənməsi, videomüşahidə, işarəvermə və rabitə sistemlərinin avadanlıqları yenilənməklə, onların yerləşdiyi sahələr və otaqlar yeni standartlar səviyyəsinə çatdırılıb. Stansiyada ən müasir mərkəzləşdirilmiş isitmə-soyutma sistemi quraşdırılıb.

Qeyd edək ki, stansiyada təmir işlərinə başlanılması, ilk növbədə, eskalatorların dəyişdirilməsi zərurətindən irəli gəlmişdi. Bakı Metropoliteninin 1967-ci il noyabrın 6-da istifadəyə verilən ilk 5 stansiyasından biri olan "Sahil" stansiyasının eskalatorları 50 illik istismar müddətini başa vurmuşdu. Onların dəyişdirildiyi müddətdə bir giriş-çıxışı olan stansiyanın bağlanması və sərnişindaşıma prosesinin dayandırılması qaçılmaz idi. Stansiyanın uzunmüddətli istismar dövründə sıradan çıxmış, yaxud köhnəlmiş avadanlıq və digər infrastrukturun yenilənməsi də lazım gəlirdi. Stansiyada genişmiqyaslı yenidənqurma işlərinə 2017-ci ilin avqust ayından start verildi.

Yenidənqurma prosesi çərçivəsində istismar müddətini başa vurmuş 3 eskalator sökülərək, əvəzində Almaniya istehsalı olan 4 yeni eskalator quraşdırıldı. Dərin özüllü stansiyaların xüsusiyyətləri nəzərə alınmaqla, konstruksiyasında bir sıra mühəndis-texniki yeniliklər edilmiş bu eskalatorlar ilk dəfə məhz Bakı Metropolitenində tətbiq olunub. Üç eskalator əvəzinə dördünün qoyulması isə bir giriş-çıxışı olan, həmçinin sərnişin axınının gur olduğu stansiyada hərəkətin daha operativ və rahat tənzimlənməsinə şərait yaradacaq. Eskalatorların quraşdırılması başa çatdıqdan sonra stansiyanın ümumi memarlıq ansamblına uyğun örtük təbəqəsi çəkilib, işıqlandırma və videomüşahidə sistemləri, habelə monitorlar yenilənib.









Dövlət başçısı "Sahil" stansiyasının əsaslı təmir və yenidənqurmaya qədərki vəziyyətini əks etdirən fotostendlə tanış oldu. Bildirildi ki, burada söküntü başa çatdıqdan sonra metal konstruksiyalar, platforma boyunca stansiya yolları və yol divarları gücləndirilib, eləcə də tunellərdə axıntıya qarşı tədbirlər görülüb.

Bakı Metropoliteninin hər bir stansiyası memarlıq üslubu ilə də seçilir. Özünəməxsus görünüşü olan "Sahil" stansiyasında platformanın orta salonun sonunda əvvəlki pannonun yerində doğan günəş kompozisiyası yer alır. Bütün divar boyu həkk olunmuş kompozisiya mükəmməlliyi ilə diqqəti çəkir. Bundan başqa, pilon divarları boyunca milli xalçaçılıq sənəti elementləri ilə zənginləşdirilmiş pərvazların arxasının işıqlandırılması və digər yeni elementlər stansiyanın memarlıq ansamblını zənginləşdirir.

Prezident İlham Əliyevin imzaladığı sərəncamla təsdiq olunmuş dövlət proqramına əsasən, Bakı Metropoliteni stansiyalarının yenidən qurulması, infrastrukturun müasir standartların tələbləri səviyyəsinə çatdırılması işləri planlı şəkildə aparılır. Dövlət başçısına məlumat verildi ki, hazırda "Bakmil" stansiyasının yenidənqurma tədbirləri mərhələli şəkildə yerinə yetirilir. Yaxın gələcəkdə "Xətai" stansiyasında köhnə eskalatorların dəyişdirilməsi, eləcə də Metropolitenin digər stansiya və stansiya yollarında yenidənqurma işlərinin davam etdirilməsi nəzərdə tutulub.

"Sahil" stansiyasında aparılan əsaslı təmir və yenidənqurma işləri ilə tanış olan Prezident İlham Əliyev Bakı Metropoliteninin kollektivinə uğurlar arzuladı, tapşırıq və tövsiyələrini verdi.

# Torpaq kəndlini ümidsiz qoymur

## Arpa biçini sürət götürür

**Hacıqabul rayonunda 11 min 163 hektarda arpa, 31,8 min hektarda buğda əkilmişdir. Səpini optimal müddətdə başa çatdıran əkinçilər vegetasiya dövründə sahələrə nümunəvi qulluq göstərmişlər. Suvarma, yemləmə, alaq otlarına qarşı mübarizə tədbirləri vaxtında həyata keçirilmişdir. Hacıqabullu fermerlər toxumun da keyfiyyətinə xüsusi diqqət yetirmşlər.**

Artıq vaxt gəlib çatmışdır. Bir neçə gündür ki, rayonda arpa biçininə başlanmışdır. Biçindən əvvəl rayon icra hakimiyyətində müşavirə keçirilmişdir. Kombaynçıların, mütəxəssislərin, kənd inzibati ərazi nümayəndələrinin, bələdiyyə sədrlərinin, Fövqəladə Hallar Nazirliyinin regional idarəsinin, polis şöbəsinin və digər müvafiq qurum rəhbərlərinin iştirak etdikləri tədbirdə taxılı vaxtında və itkisiz yığmaq, yanğın hallarının qarşısını almaq üçün görülmüş işlərdən danışılmışdır.

*Ardı 7-ci səh.*



# MDB-də 1-ci, dünyada 36-cı

## Azərbaycan avtomobil yollarının keyfiyyətinə görə öncül mövqedədir



**Azərbaycan coğrafi mövqeyinə görə unikal bir ərazidə yerləşir. Ölkəmiz dünyanın hətta ortaq nöqtəsindədir desək, yanılmarıq. Çünki Şərqdən-Qərbə, Şimaldan-Cənuba gedən yollardan biri də Azərbaycandan keçir. SSRİ-nin tərkibində olduğumuz dövrdə bu, hiss olunmurdu.**

Hansı yol və marşrutların haradan keçməsini Moskva müəyyənləşdirirdi. Adətən, həmin müəyyənləşdirmə də respublikamızın xeyrinə olmurdu. Həm də SSRİ-nin qapalı ölkə olması Azərbaycanın beynəlxalq əhəmiyyətli tranzit ərazisinə çevrilməsinə imkan vermirdi.

Əvəzində müstəqilliyimizi bərpa etdikdən sonra tarixi İpək yolunun bərpasının ilk təşəbbüskarı biz olduq. O vaxt Heydər Əliyev yaranmış tarixi şansdan məharətlə istifadə etdi. Bakıda 1998-ci il sentyabrın 8-də "Böyük İpək yolunun bərpası" mövzusunda konfrans keçirildi. 9 ölkənin dövlət başçısı, 13 beynəlxalq təşkilat və 32 dövlətin nümayəndə heyətinin iştirak etdiyi tarixi İpək yolunun bərpası konfransında Avropa İttifaqının dəstəklədiyi TRASEKA proqramı əsasında "Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Saziş"i imzalandı və Bakı Bəyannaməsi qəbul edildi. Bununla yanaşı, Azərbaycanın təşəbbüsü ilə TRASEKA layihəsinin daimi katibliyi də Bakıda yerləşdi. Bu fakt ölkəmizin yeni layihənin icrasına verdiyi əhəmiyyəti göstərirdi.

Qeyd edək ki, həmin dövrdə bu layihənin reallaşmamasını istəməyən qüvvələr də var idi. Bununla belə, Heydər Əliyevin qəti mövqeyi sayəsində ölkəmiz bu layihəni reallaşdırdı və tədricən Şərqdən-Qərbə, Şimaldan-Cənuba gedən yolların qovuşduğu məkana çevrildi. Sonrakı illər isə Prezident İlham Əliyevin ulu öndərin müəyyən etdiyi kursu davam etdirməsi nəticəsində Azərbaycan müasir dünyanın nəhəng nəqliyyat marşrutları keçən ölkə statusunu qazandı.

Azərbaycanın tranzit ölkəsi olmasında, sözsüz ki, coğrafi mövqeyi önəmli rol oynayır. Lakin unutmaq lazım deyil ki, əgər ölkəmizin beynəlxalq standartlara cavab verən nəqliyyat yolları olmasaydı, onun coğrafi mövqeyi heç bir əhəmiyyət kəsb etməzdi.

*Ardı 3-cü səh.*

# N.Paşinyan indi də Qarabağda çevrilişə hazırlaşır

## *Yerevanda isə artıq katolikosun istefası tələb olunur*

**Ermənistanda son vəziyyət burada etiraz aksiyalarının artıq dəb halı aldığını, tələblərin yerinə yetrilməsi üçün mitinqlərin az qala gündəlik normaya çevrildiyini göstərir. Təbii ki, bu vəziyyət normal idarəçiliyi mümkünsüz hala gətirir, ölkədə anarxiyanın yeni dalğasına rəvac verir.**

Belə bir vaxtda diqqətçəkən daha bir məqam Yerevanda bütün ermənilərin katolikosunun iqamətgahının binasının yerləşdiyi Katoqike Surb Astvatsatsin kilsəsinin qarşısından izdihamlı etiraz yürüşüdür.

*Ardı 6-cı səh.*



## “Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında” Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 13 dekabr tarixli 328 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında” Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2005-ci li 13 dekabr tarixli 328 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 12, maddə 1097) 1.8-ci bəndindən “və 17.4-cü maddəsində” sözləri çıxarılsın, həmin bənddə “Azərbaycan Respublikasının Hərbi Komissarlığı və onun yerli qurumları öz səlahiyyətləri daxilində” sözləri “Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti və onun yerli idarə, şöbə və bölmələri” sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını iki ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. “Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında” Azərbaycan Respublikası Qanunun 17.4-cü maddəsində (hər iki halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini həyata keçirən icra hakimiyyəti orqanları barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.5. bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 iyun 2018-ci il*

## “İcarəyə verilmiş dövlət əmlakından səmərəli istifadə olunması tədbirləri haqqında” Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 6 sentyabr tarixli 629 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “İcarəyə verilmiş dövlət əmlakından səmərəli istifadə olunması tədbirləri haqqında” Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 6 sentyabr tarixli 629 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 3, maddə 236; 1999, № 8, maddə 493; 2001, № 10, maddə 640; 2002, № 12, maddə 726; 2006, № 7, maddə 590; 2010, № 7, maddə 610; 2014, № 11, maddə 1417; 2015, № 9, maddə 1000) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. birinci abzasın birinci cümləsinə “sənaye” sözündən əvvəl “Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hal, habelə” sözləri əlavə edilsin;

1.2. üçüncü abzasa “100 faizi,” sözlərindən sonra “Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hal istisna olmaqla,” sözləri əlavə edilsin;

1.3. dördüncü abzasda “Səhmlərinin” sözü “Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hal istisna olmaqla, səhmlərinin” sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 iyun 2018-ci il*

## “Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və həmin qanunla təsdiq edilmiş Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 388 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və həmin qanunla təsdiq edilmiş Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 388 nömrəli Fərmanını “Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2017-ci il 1 dekabr tarixli 915-VQD nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 18 dekabr tarixli 1734 nömrəli Fərmanına uyğunlaşdırmaq məqsədi ilə **qərara alıram:**

“Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və həmin qanunla təsdiq edilmiş Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 388 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 611; 2002, № 8, maddə 478; 2008, № 3, maddələr 168, 170, № 7, maddə 618; 2011, № 4, maddə 279; 2013, № 8, maddə 893; 2016, № 4, maddə 676; 2017, № 3, maddə 353; Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 23 may tarixli 94 nömrəli Fərmanı) 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. 3.2-ci bənddə “17-1.2, 17-1.7” rəqəmləri “15-2.2, 17-1.2, 17-1.7, 34.1” rəqəmləri ilə əvəz edilsin.

2. 3.3-cü bənddə “17-1.3,” rəqəmləri “15-1.3, 17-1.3, 34.1-1 (ikinci halda),” sözləri ilə əvəz edilsin.

3. 3.5-ci bəndə “Məcəllənin” sözündən sonra “15-1.4.3-cü maddəsində, 51-1.2-ci maddəsinin üçüncü cümləsində,” sözləri əlavə edilsin.

4. 3.8-ci bənddə “34.1 və 34.3-cü maddələrində” sözləri “34.1-ci maddəsinin birinci cümləsində, 34.1-1-ci maddəsində (birinci halda), 34.1-2-ci maddəsinin ikinci cümləsində və 37-ci maddəsində” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 iyun 2018-ci il*

## Böyük Britaniya Kraliçası II Elizabetin təvəllüd günü münasibətilə Bakıda qəbul təşkil olunub





Böyük Britaniya və Şimali İrlandiyanın Kraliçası II Elizabetin təvəllüd günü münasibətilə Bakıda qəbul təşkil olunub.

AZƏRTAC xəbər verir ki, tədbirdə əvvəlcə Azərbaycanın və Britaniyanın dövlət himnləri səslənib.

Böyük Britaniyanın ölkəmizdəki səfiri xanım Kerol Krofts Kraliçanın təvəllüd gününün Azərbaycanda qeyd edilməsinin əlamətdar hadisə olduğunu söyləyib. O, ölkələrimiz arasında əməkdaşlığın hazırkı səviyyəsini yüksək qiymətləndirib. Energetika naziri Pərviz Şahbazov tədbirdə çıxış edərək əlamətdar gün münasibətilə Britaniya xalqını təbrik edib. Nazir bildirib ki, iki ölkə arasında dostluq və qarşılıqlı faydalı əməkdaşlıq əsasında davam edən əlaqələrin tarixi 26 ildən çoxdur. Əlaqələrimiz enerji və qeyri-enerji sektoru daxil olmaqla, bir sıra sahələri əhatə edir. Britaniya Azərbaycanda ən böyük investordur. Azərbaycanda 400 Britaniya şirkəti fəaliyyət göstərir. Bu yaxınlarda açılışı olan “Cənub qaz dəhlizi” əməkdaşlığımızda və qlobal enerji təminatında yeni üfüqlər açır. “Əsrin müqaviləsi”nin 2050-ci ilə qədər uzadılması, yeni yataqların kəşfi ilə bağlı nəzərdə tutulan tədbirlər tərəfdaşlıq əlaqələrimizin yeni səviyyəyə qalxmasına xidmət edəcək. Hər iki ölkə sülhün və qlobal təhlükəsizliyin təmin olunmasında sıx əməkdaşlıq edir.

Nazir əmin olduğunu bildirib ki, ölkələrimiz arasında qarşılıqlı faydalı əməkdaşlıq gələcəkdə daha da güclənəcək. Sonra Azərbaycanla Britaniya arasında əlaqələrdən bəhs edən videoçarx nümayiş etdirilib.

Tədbir konsert proqramı ilə davam edib.

## Ağsu və Göyçay rayonlarını birləşdirən Göyçay çayı üzərindəki körpünün bərpası haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. M-4 Bakı-Şamaxı-Yevlax magistral avtomobil yolunun 217-ci kilometrində Ağsu və Göyçay rayonlarını birləşdirən Göyçay çayı üzərindəki körpünün bərpası üçün Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 3,5 milyon (üç milyon beş yüz min) manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 iyun 2018-ci il*

## O.M.Mirqasımovun “Şərəf” ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə Oqtay Mirəsədulla oğlu Mirqasımov “Şərəf” ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 iyun 2018-ci il*

## M.C.Məmmədovun Tovuz Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin 2-ci hissəsini rəhbər tutaraq **qərara alıram:**

Məmməd Cahangir oğlu Məmmədov Tovuz Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 iyun 2018-ci il*

## T.M.Zeynalovun Tovuz Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin 2-ci hissəsini rəhbər tutaraq **qərara alıram:**

Tofiq Məhəmmədəli oğlu Zeynalov Tovuz Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 iyun 2018-ci il*

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident!

Xalqınızın milli bayramı - Respublika Günü münasibətilə zati-alinizə Portuqaliya xalqı adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyur, Sizə xoşbəxtlik, Azərbaycan xalqına tərəqqi və rifah arzulayıram.

Azərbaycan üçün bu əlamətdar gündə ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətlərini dərinləşdirmək, hər iki ölkənin siyasi, mədəni və iqtisadi sahələrdə mövcud potensialından xalqlarımızın mənafeyi naminə tam istifadə etmək əzmində olduğumu bildirmək istəyirəm.

Cənab Prezident, Sizi bir daha səmimi-qəlbdən təbrik edir, yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Marselo Rebelo de SOUZA,***
***Portuqaliya Respublikasının Prezidenti***

Cənab Prezident!

Azərbaycan xalqının müsəlman dünyasında demokratik inkişafın ilk modelini yaratdığı Azərbaycan Xalq Cümhuriyyətinin tarixi 100 illik yubileyi münasibətilə zati-alinizə və xalqınıza səmimi təbriklərimi çatdırıram.

Braziliya və Azərbaycan arasındakı əlaqələrin hazırkı inkişaf mərhələsi iki ölkənin tərəqqisinə və rifahına töhfə verir.

Hörmətli cənab Prezident, xalqlarımız arasındakı dostluq münasibətlərinin və müxtəlif sahələrdə əməkdaşlığımızın möhkəmləndirilməsi üçün daim çalışacağıma əmin olun.

Zati-aliləri, Sizə xoşbəxtlik, ali dövləti vəzifənizin həyata keçirilməsində uğurlar arzulayıram. Xahiş edirəm, ən yüksək hörmət və ehtiramımı qəbul edəsiniz.

***Mişel TEMER,***
***Braziliya Federativ Respublikasının Prezidenti***

Hörmətli cənab Prezident!

Milli bayramınız - Respublika Günü münasibətilə Sizi Makedoniya Respublikasının vətəndaşları adından və şəxsən öz adımdan təbrik etməkdən böyük şərəf hissi duyuram. Ölkənizə səmimi-qəlbdən firavanlıq, Azərbaycan xalqına yüksək rifah arzulayıram.

Sizinlə görüşlərimizi, o cümlədən bu ilin mart ayında Bakıda səmimi, açıq və dostluq şəraitində keçirilən son görüşümüzü böyük məmnunluqla xatırlayıram. Sizi yaxın gələcəkdə Makedoniya Respublikasında böyük məmnunluq hissi ilə qarşılayacağıma ümid edirəm. Bu əlamətdar gündə dost ölkələrimiz arasında mövcud olan əlaqələrin qarşıdan gələn dövrdə daha uğurla inkişaf edəcəyinə qəti inamımı ifadə edirəm.

Zati-aliləri, Sizə möhkəm cansağlığı və xoşbəxtlik arzulayıram.

Xahiş edirəm, ən yüksək ehtiramımı qəbul edəsiniz.

*Hörmətlə,*

***George İVANOV,***
***Makedoniya Respublikasının Prezidenti***

Əs-səlamu aleykum va rahmatullahi va barakatuhu!

Zati-aliləri!

Milli bayramınız - Respublika Günü münasibətilə Sizə, Azərbaycan xalqına və hökumətinə İraq Respublikası hökuməti və xalqı adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi çatdırıram.

Sizə möhkəm cansağlığı, Azərbaycan xalqına rifah və əmin-amanlıq diləyirəm. Fürsətdən istifadə edərək xalqlarımız arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin dərinliyini vurğulayıram.

Zati-aliləri, ən dərin hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Doktor Heydər əl-İBADİ,***
***İraq Respublikasının Baş naziri***

## Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin iclası keçirilib



İyunun 7-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin iclası olub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin sədri Vasif Talıbov, Azərbaycan Respublikasının mədəniyyət naziri, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsi sədrinin müavini Əbülfəs Qarayev və təşkilat komitəsinin üzvləri Naxçıvan şəhərinin İslam mədəniyyətinin paytaxtı seçilməsi ilə bağlı görülən işləri əks etdirən sərgiyə baxıblar.

Sərgiyə baxışdan sonra Təşkilat Komitəsinin iclasında çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov deyib:

- Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı seçilməsi ilə bağlı tədbirlərin keçirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 2 iyun tarixli sərəncamı ilə Təşkilat Komitəsi yaradılmışdır. Təşkilat Komitəsinin 2016-cı il noyabrın 25-də ilk iclası keçirilmiş, ötən dövrdə isə işçi qrupu səviyyəsində yığıncaqlar olmuşdur. Bu gün isə Təşkilat Komitəsinin ikinci iclası keçirilir. İyunun 20-də Naxçıvan Dövlət Musiqili Dram Teatrında Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı seçilməsi ilə bağlı açılış tədbiri keçiriləcəkdir. Bununla bağlı Tədbirlər Planına uyğun olaraq müvafiq hazırlıq işləri görülür.

İclasda Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natəvan Qədimova görülmüş işlər barədə məlumat verərək qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 23 yanvar tarixli sərəncamına əsasən “İslam mədəniyyətinin paytaxtı Naxçıvan - 2018” loqotipi hazırlanıb. Hazırda Naxçıvan şəhərindəki monitorlarda, Naxçıvan Beynəlxalq Hava Limanının və Naxçıvan şəhərinin girişində, “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində və “Təbriz” hotelində loqotip nümayiş olunur. Bundan əlavə, kütləvi informasiya vasitələrində, internet saytlarında və sosial şəbəkələrdə də loqotip tanıdılır. İclasda “Naxçıvan İslam mədəniyyətinin paytaxtı - 2018” açılış tədbirinin proqramı Təşkilat Komitəsinin üzvlərinə təqdim edilib.

Azərbaycan Respublikasının mədəniyyət naziri Əbülfəs Qarayev çıxış edərək deyib ki, Naxçıvan şəhərinin İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə bağlı müəyyənləşdirilən vəzifələrin icrası ötən dövrdə diqqətdə saxlanılıb. Azərbaycan Milli Kitabxanasında Naxçıvanın İslam mədəniyyətinin paytaxtı seçilməsi ilə bağlı sərgi açılıb, bütün ölkə kitabxanalarında müvafiq guşələr yaradılıb, mədəniyyət müəssisələrində tədbirlər keçirilib. Eyni zamanda ISESCO-nun saytında “Naxçıvan İslam mədəniyyətinin paytaxtı - 2018” tədbiri haqqında ingilis, ərəb və fransız dillərində məlumat yerləşdirilib. “Naxçıvan İslam mədəniyyətinin paytaxtı - 2018” tədbirinə böyük maraq vardır. Beynəlxalq təşkilatların və İslam ölkələrinin yüksək səviyyəli nümayəndələrinin tədbirdə iştirakı gözlənilir. Qonaqların Bakı şəhərində qarşılanması və Naxçıvan şəhərinə yola salınması ilə bağlı bütün təşkilati işlər görülüb. Muxtar respublikada yaradılan müasir infrastruktur və islami dəyərlərin yaşadılması sahəsində görülən işlər tədbirin yüksək səviyyədə keçirilməsinə imkan verəcəkdir.

İclasda Təşkilat Komitəsinin üzvü, Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti İsa Həbibbəyli çıxış edərək deyib ki, Naxçıvan şəhərinin İslam mədəniyyətinin paytaxtı seçilməsi əlamətdar hadisədir. Görülən işlər Naxçıvanı İslam mədəniyyətinin paytaxtı kimi Azərbaycan dövlətçiliyinə layiq şəkildə bütün dünyaya təqdim edəcəkdir. Naxçıvan təktanrıçılığın mərkəzidir və qədim diyarda bununla bağlı 3 mühüm abidə vardır. Bu torpaqda böyük mədəniyyət formalaşıb. Naxçıvan abidələrində islami dəyərlər və dünyəvilik vəhdətdə götürülüb. Nəticədə Naxçıvanda İslam dininə cəhalət və fanatizmdən uzaq yeni bir baxış - elmi və mədəni yanaşma formalaşıb. Naxçıvan şəhərinin İslam mədəniyyətinin paytaxtı seçilməsi və bununla bağlı görülən işlər İslama münasibətin Naxçıvan modeli, əslində isə ümumdünya miqyasında gerçək İslam modelidir. İsa Həbibbəyli qeyd edib ki, Azərbaycan Milli Elmlər Akademiyasında Naxçıvan şəhərinin İslam mədəniyyətinin paytaxtı seçilməsi ilə bağlı tədbirlər keçirilib, “Naxçıvan xalçaları” və “İslamda müdrik kəlamlar” kitabları ərəb dilinə tərcümə olunub, dövri mətbuatda məqalələr dərc olunub.

Ali Məclisin Sədri Naxçıvanda İslam dininə, onun dəyərlərinə və mahiyyətinə uyğun münasibətin formalaşdığını, Naxçıvan şəhərinin İslam mədəniyyətinin paytaxtı seçilməsinin isə bu qədim diyarın tanıdılması baxımından mühüm əhəmiyyətə malik olduğunu diqqətə çatdırıb, açılış tədbirinin ölkə və dünya mətbuatında geniş işıqlandırılmasının vacibliyini qeyd edib.



# MİLLİ QURTULUŞ
## - SÜRƏTLİ İNKİŞAF, MÜSTƏQİL SİYASƏT VƏ QÜDRƏTLİ DÖVLƏT QURUCULUĞU MƏRHƏLƏSİ

1993 2018

Prezident İlham Əliyevin tövsiyəsi ilə aqrar sektorda yaradılan modern təsərrüfatçılıq mexanizmləri artıq real nəticə verir



# 30 rayon, 45 aqropark

*Əvvəli 1-ci səh.*

### Bu il ölkədə 15 aqropark istifadəyə veriləcək

İqtisadiyyat Nazirliyində keçirilən kollegiya iclasında tikilməkdə olan aqroparklarla bağlı məlumat verən nazir Şahin Mustafayev qeyd etmişdir ki, bu il ölkəmizdə 15 aqropark istifadəyə veriləcək.

Artıq ölkəmizdə yaradılan 4 aqroparkda birinci mərhələ üzrə işlər başa çatdırılıb. Prezident İlham Əliyev 8 sentyabr 2016-cı ildə Yalama, 20 avqust 2017-ci ildə Şəmkir, 2 sentyabr 2017-ci il ildə Cəlilabad və cari il iyunun 5-də Goranboyda yaradılan aqroparkın açılışında iştirak edib.

Goranboyda yaradılan "Region Aqropark"dakı şəraitlə maraqlanan dövlət başçısı yenə də fermerlərə, sahibkarlara vacib tapşırıqlarını, tövsiyələrini verdi və hər zaman dövlətin onlara yardım göstərəcəyini vurğuladı.

### Aqrar sektor sürətli inkişaf mərhələsində

Əlbəttə ki, aqroparkların yaradılması sahibkarlığın inkişafı deməkdir. Dövlət bu sahədə də sahibkarlara öz dəstəyini verir, güzəştli şərtlərlə kreditlər təşkil edir. Bu da özlüyündə kənd təsərrüfatının inkişafına böyük təkan verir. Diqqət etsək görərik ki, bir aqroparkda sahibkarlıqla kənd təsərrüfatının inkişafına aid bütün istiqamətlər cəmləşib.

İki il öncə, ölkədə bir ilk sayılan Yalama Aqroparkının açılışında iştirak edərkən İlham Əliyev bildirmişdi ki, aqrar sektorun inkişafı prioritet məsələdir və bu səbəbdən də müasir aqroparkların sayının artırılması vacib şərtlərdəndir. Ölkədə yeni aqrokomplekslərin yaradılması ilə bağlı Prezident Administrasiyası, İqtisadiyyat və Kənd Təsərrüfatı nazirliklərinə birgə işləmələri üçün tapşırıq verən dövlət başçısı belə aqroparkların sayının ən azı 10-a çatdırılmasının vacibliyini vurğuladı. Bu, əlbəttə ki, kənd təsərrüfatının müxtəlif sahələrində innovativ inkişafın geniş vüsət almasına istiqamətlənmiş tapşırıq idi.












Cəmi 2 il keçdi və bu gün ölkədə 4 aqrokompleks fəaliyyət göstərir. Bu il isə daha 15 aqroparkın açılacağını nəzərə alsaq, onda deyə bilərik ki, tezliklə aqrar sektorda inqlabi yeniliklər baş verəcək.

Qeyd edək ki, hazırda Samux, Ağcabədi, Şabran, Salyan, Şamaxı, Füzuli və İsmayıllı rayonlarında da aqroparklar yaradılır.

### Yeni aqrokomplekslər idxaldan asılılığı azaldacaq

Müasir aqrokomplekslərin yaradılması qarşıya qoyulan məqsədə çatmaq üçün yeni imkanlar yaradır. Eyni zamanda aqroparklarda istehsalçıların, təchizatçıların və tədarükçülərin eyni bir ərazidə fəaliyyət göstərməsi sayəsində müvafiq biznes subyektlərinin həm resurslar, həm də məhsullar bazarına çıxışı asanlaşır, effektiv biznes strategiyası və innovativ texnologiyalar hesabına müasir tələblərə uyğun rəqabətqabiliyyətli istehsal sistemi formalaşır. Burada müasir texnologiyaların tətbiqi əsasında təşkil edilən yeni istehsal gücləri ərzaq məhsullarına olan tələbatın daxili istehsal hesabına təminatına geniş imkanlar yaradır.

Prezident İlham Əliyevin təşəbbüsü və dəstəyi ilə həyata vəsiqə alan müasir aqroparklar ölkənin ixrac coğrafiyasının genişləndirilməsində, milli brendlərin yaradılmasında, kənd təsərrüfatı sahəsində əlaqələndirilmiş vahid sistemin formalaşmasında əhəmiyyətli rol oynayır.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***





# MDB-də 1-ci, dünyada 36-cı

### Azərbaycan avtomobil yollarının keyfiyyətinə görə öncül mövqedədir

*Əvvəli 1-ci səh.*

Eyni zamanda, ölkədə uğurlu infrastruktur layihələrinin icrasının İlham Əliyev prezident seçildikdən sonra reallaşdığını da unutmaq olmaz. İstər avtomobil, istər dəmir, istər hava, istərsə də dəniz yollarında infrastuktur layihələrinin hamısı bilavasitə Prezident İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilib. Bu dövrdə Azərbaycanda 7 aeroport tikilib və onlardan 6-sı beynəlxalq statusa malikdir. Həmin aeroportlar xüsusilə xarici ölkələrlə gediş-gəlişi asanlaşdırır, sərnişin və yükləri vaxtında mənzil başına çatdırır. Xəzər dənizində tikilən Ələt Beynəlxalq Dəniz Ticarət Limanının birinci mərhələsi də artıq fəaliyyət göstərir. Yaxın gələcəkdə birinci fazada tikinti işləri tam başa çatacaq. 15 milyon ton yükdaşıma qabiliyyəti olan bu liman tam fəaliyyət göstərdikdə hətta dünyanın ən böyük ticarət limanlarından biri olacaq. Buradan böyük həcmdə yüklər Şərqdən Qərbə, Şimaldan Cənuba daşınmaqla ölkəmizin daha çox gəlir əldə etməsinə imkan yaradacaq. Üstəlik burada azad iqtisadi zonanın yaradılması haqqında qanun qəbul olunub. Qanunun icrası Ələt Beynəlxalq Dəniz Ticarət Limanının əhəmiyyətini daha da artıracaq.

Prezident İlham Əliyev ölkədə həyata keçirilən infrastruktur layihələrin böyük əhəmiyyət verərək demişdir: "Biz Azərbaycanı nəqliyyat qovşağına çeviririk. Açıq dənizlərə çıxışı olmayan ölkə Avrasiyanın nəqliyyat mərkəzlərinin birinə çevrilir".

Azərbaycanın beynəlxalq tranzit ölkəsinə çevrilməsində dünya standartlarına cavab verən avtomobil yollarımızın da əhəmiyyəti böyükdür. Son 15 ildə ölkə üzrə 15 min kilometr uzunluğunda yollar çəkilməsi sıradan bir fakt deyil. Təkcə bu il 2 min kilometr uzunluğunda yeni yolların tikintisi nəzərdə tutulub. Ötən il dövlət başçısının imzaladığı 33 sərəncamla 31 rayon və şəhərdə 665,7 min nəfər əhalinin yaşadığı 395 yaşayış məntəqəsini birləşdirən və uzunluğu 863,2 kilometr olan 42 kəndarası avtomobil yolu çəkilib. Bununla yanaşı, Bakıda 736,8 min nəfər əhalinin yaşadığı 28 yaşayış məntəqəsini birləşdirən və uzunluğu 98 kilometr olan 10 qəsəbələrarası avtomobil yolunun tikintisi başa çatdırılıb. Cari ildə isə paytaxtda uzunluğu 106,4 kilometr olan 11, uzunluğu 1274,1 kilometr olan 52 kəndarası layihənin, habelə respublika əhəmiyyətli avtomobil yollarının tikintisi həyata keçiriləcək.







"Şimal-Cənub nəqliyyat dəhlizi"nin fəaliyyətini tezləşdirmək üçün Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi yeni avtomobil yolunun H.Z.Tağıyev qəsəbəsindən başlayaraq tikintisinə qərar verilib. Ümumi uzunluğu 243 kilometr olan Ələt-Astara-İran İslam Respublikası dövlət sərhədi avtomobil yolu isə tam olaraq cari ildə istifadəyə veriləcək.

Xəbər verildiyi kimi, bu günlər qlobal rəqabətqabiliyyətlilik indeksi üzrə dünyanın ən yaxşı və ən pis avtomobil yollarına malik ölkələrin siyahısı açıqlanıb. 137 ölkənin yer aldığı siyahı 7 ballıq qiymətləndirmə ilə müəyyən edilib. Siyahıda 4,8 balla 36-cı yerdə qərarlaşan Azərbaycan keçmiş SSRİ respublikalarından, o cümlədən hazırda Avropa İttifaqının üzvü olan Estoniya, Latviya, Litvadan irəlidədir. Bunu təkcə neft amili ilə əlaqələndirmək istəyənlərə xatırladırıq: Qazaxıstan və Rusiya da neft-qaz ölkəsidir. Amma onlar 2,9 balla müvafiq olaraq 115 və 114-cü yerləri bölüşürlər. Həmin cədvələ əsasən ölkəmiz yollarının keyfiyyətinə görə hətta İsveç, Yeni Zelandiya, İrlandiya, Çin, Yunanıstan, Belçika, İtaliya, İslandiya, Sloveniya, Norveç, Macarıstan, Polşa, Slovakiya, Çexiya kimi ölkələrdən də öndədir.

Gəlin razılaşaq ki, bu, böyük nailiyyətdir, xüsusən də keçmiş SSRİ-dən bizə indi böyük məsafə ilə geridə qoyduğumuz digər respublikalara nisbətən daha keyfiyyətsiz yolların miras qaldığını nəzərə alanda. Buna baxmayaraq, biz nəinki həmin respublikaları, hətta "qoca qitə"nin qocaman ölkələrini də geridə qoya bilmişik. Amma bu da hələ hamısı deyil. Prezident İlham Əliyev demişkən: "Azərbaycan MDB məkanında yol infrastrukturu üzrə 1-ci, dünya miqyasında isə 36-cı yerdədir. Azərbaycanda nəinki yol infrastrukturu, bütün infrastruktur ən yüksək səviyyədədir... Baxın, son illər ərzində nə qədər böyük işlər görülmüşdür".

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Həm istirahət, həm də müalicə

### Tibbi turizm üçün də Azərbaycan əlverişli məkandır

**Müasir dünyanın ən gəlirli, geniş və sürətlə inkişaf edən sahələrindən birinin turizm olması heç kimə sirr deyil. Hazırda bütün dünyada, o cümlədən Azərbaycanda turizm sektoru davamlı olaraq inkişaf edir, genişlənir və qazanc gətirən sahə kimi özünü doğruldur. Elə ona görə də bu gün turizm iqtisadiyyatın aparıcı sahələri sırasına daxil edilib və onun yeni qolunun - tibbi turizmin də formalaşması üçün zəmin yaranıb.**

### Müasir çağırışlara cavab verən turizm sektoru

Azərbaycanın turizm sahəsində rəqabət imkanları çox yüksəkdir. Təbii imkanlar, zəngin tarixi-mədəni irsin olması ilə yanaşı, dövlət başçısının ölkənin sosial-iqtisadi yüksəlişinə və turizmin inkişafına ayırdığı diqqət bu sahənin sürətlə genişlənməsinə rəvac verib. Konkret olaraq Azərbaycan dövləti turizm sahəsinin inkişafını iqtisadiyyatın qeyri-neft sektoru üzrə prioritet istiqamət elan edib. Son 10 il ərzində ölkədə turizmin təşviqi ilə bağlı görülən işlər, aparılan islahatlar, qəbul edilən dövlət proqramları bunu bir daha sübut edir.

Bu tədbirlər nəticəsində Azərbaycanda turizm sənayesi yeni mərhələyə qədəm qoyub, ölkəmiz dünyada yeni turizm istiqaməti kimi tanınıb.

Təkcə bir faktı xatırladaq ki, 2017-ci ildə ölkəmizə 2 milyon 692 min nəfər turist gəlib. Son 4 ayda isə dünyanın 182 ölkəsindən 847,6 min xarici ölkə vətəndaşı Azərbaycana təşrif buyurub. Onların da böyük əksəriyyəti turizm məqsədilə gələnlərdir. Bu göstərici ötən ilin müvafiq dövrü ilə müqayisədə 13,4 faiz çoxdur. Ümumiyyətlə, belə artım tendensiyası son illər sürətlə yüksəlir. Sözsüz, bunların qarşılığında paytaxt və bölgələrimizdə turizm infrastrukturu da ildən-ilə modernləşir, yeni çağırışlara uyğun təkmilləşdirilir.

Son illər bu sahədə daha çox diqqət çəkən istiqamət isə tibbi turizmdir. Tibbi turizm - istirahətlə yüksəksəviyyəli tibbi xidməti özündə birləşdirir. Eyni xərclə, eyni məkanda həm istirahət edirsən, həm də müalicə olunursan. Təbii ki, tibbi turizmin inkişafı üçün ölkənin təbii-müalicəvi yerlərinin olması əsas şərtdir. Bunun üçün də Azərbaycan çox əlverişli məkandır.

Dünyanın müxtəlif ərazilərində, o cümlədən Azərbaycan ərazisində minerallarla zəngin termal qaynaqlar var. Bu su mənbələri qədim zamanlardan insanlar tərəfindən istifadə olunub. Eləcə də bu resursların istifadə olunması və faydaları haqqında müxtəlif mənbələrdə yazılıb, elbəel danışılıb. İndi isə bu termal sulardan daha geniş, daha xeyirli istifadə edilməsi üçün müasir infrastruktur yaradılıb, optimal müalicə imkanları qurulub. Bu da, təbii ki, həm istirahət edib, həm də sağlamlığının qeydinə qalan insanları çox cəlb edir.

Bu gün Naftalan İstirahət və Sağlamlıq Mərkəzində, Şabran rayonu ərazisində yerləşən "Qalaaltı" kurortunda, Naxçıvanda duz mağaralarında, Masallı "İstisu" sanatoriyası və digər yerlərdə tibbi turizm üçün yüksək şərait yaradılıb.

### Tibbi turizm ölkəyə yeni turist axını gətirir

Xatırladaq ki, Azərbaycanda tibbi-müalicəvi turizmin inkişafına illər öncə Naftalanda start verildi. Sonra bu proses uğurla davam etdirildi, ölkəmizin digər regionlarında olan belə müalicəvi yerlər də insanların diqqətini çəkdi. Bu gün Qalaaltıda insan orqanizmi üçün çox xeyirli su mənbəyi var, orada qısa zamanda müasir standartlara cavab verən hotelin tikilməsi turistlər və yerli sakinlər üçün xüsusilə cəlbedici oldu.

Dünyanın ən təhlükəsiz ölkələrindən olan Azərbaycanda tibbi turizmin də yaradılması yeni turistlərin ölkəyə gəlməsinə rəvac verib. Bu gün Naftalan şəhəri həm müalicəvi neftinə, həm də müasir turizm infrastrukturuna görə turistlərin diqqətini çəkən və tez-tez üz tutduqları məkana çevrilib. 2018-ci ilin birinci rübündə Naftalana gələn turistlərin sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 20,1 faiz çox olub. Qeyd olunan müddətdə turizm obyektlərində 5 mindən artıq turist qeydə alınıb ki, onun da 2 min 241 nəfəri əcnəbi qonaqlardır.

### Avropanın "termal şəhərlər" siyahısında Azərbaycan şəhərləri

Digər bir fakta diqqət edək: bu günlərdə Avropa Tarixi Termal Şəhərlər Assosiasiyası (EHTTA) Baş Assambleyasının beynəlxalq konfransı "Qalaaltı" kurortunda keçirildi. Bu heç də təsadüfi deyildi. Avropanın termal turizm xəritəsi, termal şəhərlərdə turizmin inkişaf etdirilməsindən bəhs olunan tədbirdə təqdim olunan xəritə üzərində termal mənbələri olan Azərbaycanın yerləşdiyi ərazi də təsvir olunmuşdu. Bu onu göstərir ki, artıq avropalı da, amerikalı da bilir ki, Azərbaycanda belə yer var, ora getmək, onu kəşf etmək lazımdır. Qeyd edək ki, hazırda dünyada 150-dək termal şəhər mövcuddur. İndi isə hədəf bu termal sulardan daha geniş istifadə edilməsi üçün müasir infrastruktur yaradılması, müalicə imkanlarının genişləndirilməsidir.

Müasir dövrdə dünyanın qabaqcıl ölkələrində tibbi turizm inkişaf edir və turizmin bu növünə maraq ildən-ilə yüksəlir. Çünki gəlirli sahə kimi həm ayrı-ayrı ölkələr bu sektorun inkişafında maraqlıdırlar, həm də turistlər üçün bu yönüm böyük əhəmiyyət kəsb edir. Hazırda ABŞ, Malayziya, Sinqapur, Braziliya, Meksika, Türkiyə, Macarıstan və Hindistan tibbi turizm sahəsində lider olan ölkələrdir. Onların hər birinə il ərzində orta hesabla 800 min - 1 milyon arası insan tibbi turizm məqsədilə səfər edir.

Bu istiqamətdə tibbi turizm şirkətləri də fəaliyyət göstərir. Onlar yerli insanlara xidmət göstərməklə yanaşı, eləcə də ölkəmizə əcnəbiləri cəlb etməklə məşğul olurlar. Konkret olaraq müraciət edən hər turistə xəstəliyinə, səhhətinə uyğun xəstəxana, yer, məkan seçməkdə, eləcə də xəstənin maddi vəziyyətinə uyğun ünvan seçimində və digər məsələlərdə köməklik göstərirlər.

***Elnur HADIYEV,***
***"Azərbaycan"***

**...Deyirlər ki, tanıdığın insan haqqında söz demək, yazı yazmaq olduqca asandır. Ən azı ona görə ki, tanıdığın adamın həyat tarixçəsini, xasiyyətini yaxşı bildiyindən onun fəaliyyətinə müxtəlif baxış bucağından yanaşmaq, yanılmadan qiymət vermək imkanın olur.**

**Bu mənada, tanınmış ziyalı, istedadlı qələm sahibi, ictimai-siyasi xadim, ən əsası, əsl insan. İmamverdi İsmayılov haqqında yazı yazmaq onun mənim kimi yüzlərlə dostu üçün "sonu görünməyən yovşanlı çöldə" arxayın-arxayın gəzmək qədər asandır.**

**Amma bu asanlığın bir qəlizliyi də var....**

**Yaz səhərinin sərin mehinin asta-asta dalğalandırdığı yovşanların babalarımızın ruhu kimi qanımıza hopmuş bihuşedici ətrini ciyərlərinə çəkərək, "Yazı düzü"ndə addımlamaq sevinci, qısa bir vaxtdan sonra bu düzün üfüqlə birləşən ucsuz-bucaqsız ənginliyini gəzib qurtara bilməmək qorxusu ilə əvəz edildiyi kimi, parlaq istedadı, çoxşaxəli və çoxillik fəaliyyəti ilə cəmiyyətin gözündə öz obrazını yaratmış tanınmış şəxslər haqqında mükəmməl söz deyə bilməmək qorxusu da məsuliyyətli qələm sahibini həmişə təqib edir...**



# Bizim ellər yerindəmi...

..."Yazı düzü"nün adını eşidəndə mənim 7-8 yaşım ancaq olardı. Hər axşam yeni nağıl danışmağa məcbur etdiyim Əli babam bildiyi bütün nağılları danışıb qurtarandan sonra öz qaçqınlıq həyatından, 1918-1922-ci illərdə Zəngilan, Qubadlı, Cəbrayıl, Füzuli rayonlarında bəylərin qapısında əkinçilik, muzdurluq etdiyi ağır günlərdən danışardı.

Babam söyləyərdi ki, Bərşaddıda (Zəngəzurda Bərgüşad çayı boyunca olan kəndləri belə adlandırırdılar) çəltik becərir, Mincivan bazarında alver edir, Yazı düzündə yerli bəylərin qoyun sürülərini otarır, əkin əkib, zəmilərini biçərdik.

O vaxtlar yazıb-oxumağı təzə-təzə öyrəndiyimdən babamın bu söhbətlərində adını çəkdiyi yerlərin içərisində "Yazı düzü" adı marağımı daha çox çəkmişdi.

"Yazı düzü" ifadəsini uşaq ağlımla "yaz-bahar", "yazıb-oxumaq", "alın yazısı" kimi mənalandırırdım. Böyüyəndən sonra öyrəndim ki, Yazı düzü Zəngəzurda Həkəri və Bərgüşad çaylarının arasında yerləşən üçbucaq şəkilli geniş bir vadidir. Böyüklüyü və bərəkəti ilə Qubadlı-Zəngilan elinin qürur yeri olan Yazı düzünün güllü-çiçəkli yazı, qızmar, ilanlı-çəyənli yayı, sərt küləkli, gürşad yağışlı payızı, qarlı-çovğunlu qışı vardı.

İnsan təbiətin bir parçasıdır və doğulub böyüdüyü yerin xüsusiyyətlərini çox zaman öz görkəmində və xarakterində yaşadır.

Bu baxımdan mən dostum İmamverdi İsmayılovu kiçik Vətəni Zəngəzurun zirvələrində qartallar qıy vuran "qüdrətdən səngərli qalalı dağlar"ına, şaqqıldayıb axan bol sulu gur çaylarına və nədənsə, daha çox Yazı düzünə bənzədirəm...

...O Yazı düzünə ki, bir yanağını Qubadlının, bir yanağını Zəngilanın üzünə söykəyib.

...O Yazı düzünə ki, bol bərəkətli torpaqları göz işlədikcə uzanıb gedir, otlaq yerləri də, əkin tarlaları da, üzüm bağları da səxavətli dost süfrəsi kimi Vətən övladlarının qarşısında həmişə açıq olmuşdur.

...O Yazı düzünə ki, elə qəhrəmanımın özü kimi, onun təbii xarakteri var: qışı qış kimidir, yazı yaz kimi, uzaqdan dümdüz, yamyaşıl və hamar görünsə də, daşlı-qayalı, eniş-yoxuşlu, çiçəkli, yovşanlı və şoran yerləri də vardır.

...O Yazı düzünə ki, qucaqlamaq istəyərsən, qolların çatmaz.

...O Yazı düzünə ki... sadəcə, DÜZ dür.

...O Yazı düzü dolanbacları, sərt yoxuşları ilə həm də İmamverdi İsmayılovun keşməkeşli həyatının, çətin keçən ömrünün və xarakterinin ümumiləşdirilmiş rəmzidir...

...Rəmzdən söz düşmüşkən, elə əvvəldən bir qənaətimi də qeyd edim: boy-buxunlu, çinar qamətli qardaşım İmamverdinin mahiyyəti, mənəviyyatı, şəxsiyyəti, əqidəsi, kişiliyi əslində, ounun boyundan daha ucadır...

* * *

İmamverdi müəllim taleyi göydə yazılmış qəza-qədər adamıdır. Zatən, yazıçı qəza-qədərsiz olmaz ki!..

Düz altmış il bundan öncə Zəngilanın Vənətli kəndində, Süsən dağının və Süsən meşəsinin ətəklərində dünyaya göz açmış İmamverdini tale çox da əzizləyib süsləməmişdir.

Dördüncü sinifdə oxuyarkən atasını itirən bir oğlan taledən niyə razı qalsın ki!..

Şəhər həyatında atasızlıq, yetimlik o qədər də bilinməz. Amma... kənd yeri ayrıdır...

Kənddə yaşayan uşağın atasızlığı məhəllədə, sinifdə, oyun meydançasında, çayda çiməndə, dağda-bağda hər saat, hər an boz ayın ala-çalpovu kimi sifətinə çırpılar, qanını dondurar, çiynini, boynunu qısmağa məcbur edə bilər.

"...Qalxıb Sərxan əminin ayaqlarına döşənib yalvarmaq istədim. Sərxan əmi, ay Sərxan əmi, denən ölməyəcək dədəm, denən sağ qalacaq dədəm, məni öz atına mindirib meşəyə aparacaq. Sərxan əmi, çöldə evciyini uçurduğum uşaqlar mənə "yetim" deməsinlər, odey, Fərmanın dədəsi ölən kimi uşaqlar ona yetim dedilər, Fərman dözməyib özünü daşa çırpdı, anası gəlib ovundurub apardı. Denən Sərxan əmi, denən, denən ölməyəcək! Əgər Allahın varsa, denən!.." (İ.İsmayılov, "Ocaq daşı" povesti).

Nə yaxşı ki, gözü nurlu, üzü həyalı, ağzı dualı, qeyrətli, zəhmətkeş analarımız var. Bir üzü qız, bir üzü gəlin, birçəyinin birini ağ, birini qara hörüb, ucqar dağ kəndində atasız dörd uşağı sağlam, tərbiyəli böyüdüb onlara ali təhsil vermək nəinki hər qadının, hətta hər kişinin də hünəri deyil.

Elin-obanın ağbirçəyi, ballı-bərəkətli süfrəsi və çörəyi olan Asiyə Ana kimi - hünərli, qeyrətli və təpərli...

"...Bir az xərclik puludu. "Maralı" satmışam, başına dönüm, muğayat ol əyin-başınnan, puldan-zaddan korluq çəkmə... Allah lənət eləməsin bizim kolxozun buxalterinə, yazıqdı, bu ayın pulunu gələn ay verir, onu da alan kimi göndərəcəm... Təki sən o qərib yerdə korluq çəkmə, canını sulu saxla ki, müəllimə də cavab verə biləsən." (İ.İsmayılov, "Ocaq daşı" povesti).

Hər cür maddi və mənəvi sıxıntıların acığına Tanrı ona güclü istedad və dərin ağıl vermişdi...

Zəhməti, ağlı və istedadı hesabına orta məktəbi əla qiymətlərlə bitirən İmamverdi İsmayılov arzusunun əlindən, ümidinin ətəyindən yapışaraq Bakıya üz tutdu, o zamanlar üçün çox hörmətli sayılan Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsinə elə birinci ilində də qəbul olundu, oxudu, öyrəndi və həm də həyat dərsləri keçdi...

Universitetin II kursunda oxuyarkən qələmə aldığı "Təqaüd" hekayəsi ilə bütün gəncliyin sevimlisinə çevrildi, onun "Əzrayıl" povesti isə ədəbi tənqidin diqqətini ciddi şəkildə özünə cəlb etdi: səksəninci illər nəsrinə yeni bir nəfəs, yeni bir imza gəlmişdi...

İmamverdi İsmayılov, - kənddən şəhərə böyük ümidlərlə, sabaha inamla amma bir az ürkək, arxasız-dayaqsız qədəm qoyan o gənc - artıq özünün ilk təsdiqini tapmışdı...

* * *

Bizim Zəngəzur camaatının xeyrində-şərində görüşdüyüm insanlar arasında İmamverdi müəllimin uşaqlıq dostlarına onu lap körpəliyindən tanıyan qonşularına, kəndçilərinə də tez-tez rast gəlirəm. Söhbət hərlənib-fırlanıb hökmən qardaşım İmamverdinin üzərinə gəlir.

...Və bu sadə insanlar İmamverdi İsmayılovun uşaqlıq, yeniyetməlik çağlarından, elə əhvalatlar, hadisələr danışırlar ki, kövrəlirəm, duyğulanıram, həm bəhrələnirəm, həm də bir daha əmin oluram ki, 60 yaşlı İmamverdi elə 10 yaşında da, elə 15-də də belə olub: bütöv, mərd, kişiyana, dostcanlı, səmimi...

Dördüncü sinifdə "Azərbaycan pioneri" qəzetində dərc olunan yazısı ilə nəinki kəndində, rayonda belə bir anda məşhurlaşır. Müxtəlif bölgələrdən, neçə-neçə uzaq yerlərdən ucqar dağ kəndinə gələn məktubları görən ağsaqqal-ağbirçəklər 11 yaşlı İmamverdinin gələcəyinin parlaq olacağını elə o vaxtdan deyirdilər...

Ağsaqqallardan söz düşmüşkən, uşaqlıq yoldaşları deyirlər ki, İmamverdi elə lap əvvəldən özündən yaşda böyüklərlə ünsiyyət qurarmış, dostluq edərmiş. Tale onsuz da onu vaxtından əvvəl böyütmüşdü - o isə taleyinin özünün yazdığı mərhələlərini böyüklərlə keçirdi, böyük sözü dinlədi, sonra da böyük yolların sarvanı, böyük söz sahibi oldu...

* * *

Təyinatla əmək fəaliyyətinə o vaxtkı Dövlət Televiziya və Radio Komitəsində ştatdankənar müxbir kimi başlayan İmamverdi İsmayılov ömrünün on ilini telejurnalistikaya həsr etmiş, burada kiçik redaktordan baş redaktor vəzifəsinə qədər yüksəlmiş, o dövrün ən populyar verilişləri hazırlanan "Gənclik" baş redaksiyasının baş redaktoru olmuşdur.

Ötən əsrin səksəninci illərində bu vəzifə hələ 30 yaşı olmayan gənc bir qələm sahibi üçün fövqəladə uğur sayılırdı. Televiziyada bir-birindən orijinal, baxımlı verilişlər hazırladı: "Aygün" qızlar klubu, "Çay dəstgahı", "7 sual, 7 cavab", "Sənin dünyan, mənim dünyam", "Görüş vaxtı 20:30" kimi verilişlər qısa zamanda xeyli populyarlıq qazandı.

Mərkəzi mətbuat orqanlarında tez-tez publisistik məqalələri, oçerkləri, "Ulduz" və "Azərbaycan" kimi sanballı ədəbiyyat jurnallarında hekayə və povestləri dərc olunmağa başladı. Onun qələmə aldığı "Əzrayıl" romanı, "Ocaq daşı", "Qədim kişinin qırxı" povestləri, "Barsız bağban", "Yurd gürzəsi", "Hal aparmış qadın", "Həsənalının təndirinin yanması", "Yuxusuz gecələrin tramvayları" və digər kimi hekayələri ötən əstin 80-90-cı illərinin yaddaqalan ədəbiyyat nümunələrindən sayıla bilər.

İti müşahidə qabiliyyəti, obrazlı düşüncə tərzi, duzlu-məzəli yumor hissi, hadisələrə orjinal yanaşma bacarığı, problemə dərindən nüfuzetmə və reallığı düzgün qiymətləndirmək, obyektiv və qərəzsiz olmaq hər bir uğurlu qələm adamı üçün vacib şərtlərdir. Bütün bu keyfiyyətlərə malik olan İmamaverdi İsmayılov qısa müddət ərzində ustad bir jurnalist və istedadlı yazıçı kimi cəmiyyətdə tanındı və qəbul olundu.

Azərbaycan müstəqilliyini əldə etdikdən sonra İmamverdi müəllim milli jurnalistikamızın öncüllərindən biri kimi ictimai proseslərə fəal qoşuldu, jurnalistlərin yaradıcılıq, sosial-məişət qayğılarına dəstək oldu, milli mətbuatımızın inkişafına öz layiqli töhfələrini verdi.

* * *

İmamverdi İsmayılov ölkəmizdə çağdaş siyasi publisistika janrının ən parlaq nümayəndələrindən biridir. Onun ümummilli lider Heydər Əliyevə və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fəaliyyətinə həsr etdiyi "Prezidentin siyasi portretindən ştrixlər", "Heyrət", "Hədəflər", "Məhək daşı", "Şah və ...mat" kimi portret yazılarını tam məsuliyyətlə müasir siyasi publisistikamızın uğuru saymaq olar!..

İmamverdi İsmayılovun publisistikası təkcə təsvir və tərənnüm etmir, həm də təhlil edir, nəticə çıxarır, qiymət verir, düşündürür və oxucuya da düzgün yolu göstərir.

Öz üslubu, öz nəfəsi, öz dəsti-xətti var. Orjinal yazıları ilə hamını təəccübləndirməyi bacarır. Standartlardan və qəlblərdən uzaqdır. Folkloru güclü bilir, yazı dili çox zəngindir, bulaq suyu kimi saf və axıcıdır - hamı bunu birmənalı etiraf edir!..

Neçə kitabın, yüzlərlə dəyərli məqalənin müəllifi İmamverdi İsmayılov respublikamızın əməkdar jurnalisti və "Qızıl qələm" mükafatı laureatıdır.

* * *

Hörmətli qələm dostumun və həmkarımın bədii yaradıcılığından danışarkən bir istiqaməti hökmən qeyd etməliyəm. Bu, İmamverdi İsmayılovun aforizmləridir.

Xalq yaradıcılığına dərindən bələd olan, ana dilimizin gözəl bilicisi İmamverdi müəllim lakonik və sərrast fikirlərin - aforizmlərin müəllifi kimi də orijinaldır, təzədir, düşündürəndir, yol göstərəndir.

İmamverdi müəllimin aforizmləri həyatdan gələn, günümüzün, məişətimizin reallığından doğan həyat həqiqətləridir.

İmamverdi müəllimin aforizm yaradıcılığından böyük ürək genişliyi ilə bəhs edən və "Sonuncu fəsil" kitabına ön söz yazan hörmətli akademik İsa Həbibbəyli çox haqlı olaraq qeyd edir ki, "İmamverdi İsmayılovun müdrik düşüncələrinin bir çoxu həyatda yaşamış real insanların - atası, anası, babası, əmisi, dayısı kimi yaxın adamlarının adından, "onlar deyərdi ki," təhkiyəsi əsasında formalaşdırılaraq yaşanmış həyati proseslərin ümumiləşdirilmiş ifadəsinə çevrilir."

Aforizmi kim yaradar?

Dünyagörmüş, müdrik insanlar...

Elində-obasında sözü eşidilən, sözü keçən şəxslər...

Əməli ilə dedikləri üst-üstə düşən adamlar...

* * *

Mən qəti əminliklə söyləyə bilərəm ki, əgər ötən əsrin sonlarında xalqımızın başına gətirilən müsibətlər - erməni separatizmi, torpaqlarımızın işğalı, milli dövlətçiliyimizin təhlükə altına düşməsi və digər hadisələr olmasaydı, İmamverdi İsmayılov heç zaman siyasətə gəlməz, heç bir partiyanın üzvü belə olmaz, Allahına bəndəlik, qələminə qulluq edərək ilahi sözün xidmətində dayanardı.

Ancaq Dağlıq Qarabağın və Qarabağətrafı bölgələrimizin, o cümlədən doğma Zəngəzur ellərinin işğal edilməsi, yüz minlərlə soydaşlarımızın ata-baba yurdlarından didərgin salınması bir çox ziyalılarımız kimi İmamverdi İsmayılovu da siyasi proseslərə daha aktiv qoşulmağa vadar etdi.

Kimsənin kitabını kimsənin oxumadığı qarışıq bir zamanda haqq sözü daha yüksək kürsüdən söyləmək zərurəti yaranmışdı.

Ümummilli lider Heydər Əliyevin siyasi kursunu elə ilk gündən sidq-ürəklə dəstəkləyən İmamverdi İsmayılov həm Qubadlı, həm də Zəngilan camaatının doğması kimi onların təmsilçisi olaraq millət vəkili seçildi.

Artıq 25 ilə yaxındır ki, İmamverdi müəllim məcburi köçkünlüyün, yurd itkisinin maddi və mənəvi sıxıntısını yaşayan bir toplumun maraqlarını Milli Məclisdə ləyaqətlə və hörmətlə təmsil edir.

* * *

Onu da deyim ki, İmamverdi İsmayılov tez-tez çıxışa yazılan, çox və uzun nitqlər söyləyən deputatlardan deyil.

Təvazökar və təmkinli... Öz dünyasında yaşayan, reklamdan və şoudan çox uzaq...

Zatən aforizmlər yazan bir kişinin çox danışmağa ehtiyacı da yoxdur. Tez-tez çıxış etməsə də, onun bir fikri, bir cümləsi, bir sözü, adətən, qərar qəbul edilməsi anında həlledici olur.

İmamverdi müəllim Milli Məclisin plenar iclaslarında arxa sırada otursa da, parlamentin hər yerindən görünür!..

Milli Məclisdəki müzakirələr çox zaman Məclisin çayxanasında da qızğınlıqla davam edir. Bu müzakirələrdə də əsas söz sahiblərindən biri İmamverdi müəllimdir.

Stajli deputat kimi onun belə iclasların "sinifkomu" seçilməsinin tərəfdarları da az deyildir. İmamverdi müəllimin incə yumoru, düz onluğa dəyən atmacaları, səmimi təbəssümü, içdən, ürəkdən gələn gülüşü, istiqanlılığı, barışdırıcı mövqeyi, realist, obyektiv münasibəti onu böyüklü-kiçikli məclislərin liderinə, hörmət sahibinə çevirir.

Onun çox qəribə aurası var...

Çox ünsiyyətcil, mehriban insandır. Eyni zamanda münasibətini də tez büruzə verəndir, sevdiyi insandan sevgisini, bəyənmədiyi insana miyanə münasibətini gizlədən deyildir. İmamverdi müəllim yaxın dostları ilə görüşəndə elə bil dörd tərəfdən adamın üstünə gəlir, uzun qollarını qartal qanadları kimi açaraq adamı elə səmimiyyətlə qucaqlayır ki, kənardan baxan bu dostların illər ayrısı olduğunu düşünə bilər.

Amma zəhləsi gedirsə, vay onun halına... Onun sevgisi də, nifrəti də özüdür, səmimidir və kənardan görünəndir...

Kimsəyə paxıllıq etməz, qeybəthəkət bacarmaz, söz gəzdirməz, ara vurdurmaz... Mərdi-mərdanə, kişi kimi sözü sərrast üzə deməyi bacarır. Bəlkə buna görədir, hamı onu belə çox istəyir, xətrini əziz tutur, ürəyini ona açır, dərd-sərini onunla bölüşür...

İmamverdi İsmayılov bütün varlığı ilə dövlətçi adamdır...

2005-2010-cu illərdə onunla eyni beynəlxalq təşkilatda - Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvü olmuşuq.

"Qardaşı da yolda tanıyarlar" - deyiblər. İmamverdi müəllimin nə qədər səmimi, qayğıkeş, sadə bir insan, eyni zamanda dövlətini və millətini ləyaqətlə təmsil edən bir siyasi xadim olduğuna mən xarici səfərlərimizdə dəfələrlə şahid olmuşam.

Ailə cəmiyyətin quruluş vahidi, dövlətin kiçik bir modelidir. Cəmiyyətə hörmət ailəyə hörmətdən başlayır, dövlətə münasibət ailəyə münasibətlə ölçülür.

Bu baxımdan da İmamverdi müəllim xoşbəxt adamdır. O, nümunəvi bir azərbaycanlı ailəsinin başçısı, üç dəyərli, dövlətçi və milli ruhlu oğul atası, gözəl nəvələrin babasıdır.

* * *

İmamverdi İsmayılov imzasını mətbu yazılarından tanısam da, şəxsi tanışlığımız 2000-ci ildən başlayıb. Mən YAP-ın proporsional siyahısı ilə parlamentə seçilmişdim. İmamverdi müəllim isə Zəngilan-Qubadlı seçki dairəsinin artıq bir dönəmi arxada qoymuş stajlı deputatı idi. Parlamentdə yüz ilin tanışları kimi görüşdük. İlk sözü məni yerimdən tərpətdi: "Bizim ellər yerindəmi?.."

O vaxtdan on səkkiz il keçsə də, İmamverdi müəllimlə hər dəfə görüşəndə ya o bu sualı verir, ya da mən o sualın veriləcəyini gözləyirəm. İkimiz də bir el-obadan, Vətənimizin gözəl diyarı Zəngəzurdan olduğumuzdan bizi həm də eyni dərd, eyni qayğı, eyni nisgil birləşdirir...

İmamverdi müəllim el-oba adamıdır. Qubadlı-Zəngilan camaatının bir xeyrindən, bir şərindən qalmaz. Onun çox zaman seçiciləri ilə görüş yeri də elə bu məclislər olur. Səbirlə, hövsələ ilə hər kəsin problemini dinləyər, qayğısını bölüşər, məsləhət verər, əlindən gələn köməyi göstərər.

İmamverdi müəllim elə bu məclislərdə hökumətin siyasətini təbliğ edir, camaata çatdırar, bu məclislərdə camaatın qaldırdığı problemi öyrənib, müxtəlif instansiyalarla həll etməyə çalışar.

İmamverdi müəllim torpaq işğalının ağrısını, obasız ellərin, elsiz obaların dərdini öz həyatında görən, öz içində çəkən adamdır.

Mənə elə gəlir ki, o, hər dəfə, - "Bizim ellər yerindəmi?"- soruşanda bu dərdi bölüşməyə həmdərd axtarır.

Və həm də Zamanan bir gün bu suala: "Bəli, artıq yerindədir!" - cavabını eşidəcəyi ümidlə yaşayır...

Bu illər ərzində İmamverdi müəllimin bir ziyalı, bir qələm sahibi, bir ictimai-siyasi xadim kimi ən çox çalışdığı o olub ki, bu ellərin birliyi dağılmasın, adət-ənənələri yaşasın, o torpaqlara qayıtmaq ümidi ölməsin, istəyi itməsin...

İmamverdi İsmayılovun özünün "Bizim ellər yerindəmi..." adlı çox təsirli essesində aforizm kimi qiymətli, lakonik bir fikir heç yadımdan çıxmır: "Baş daşı olmayan ölü papaqsız qalmış kişi kimidir..."

Mən əminəm ki, İmamverdi müəllimin növbəti yubileyinə qədər ellərimizin papaqlı kişiləri gözü yolda qalan obalarımıza dönəcək, dağılmış yurdlarımızı bərpa edəcək, ölülərimizin baş daşlarını yerinə qoyacaq, sərgərdan ruhlarını şad edəcəklər.

...Və o zaman biz bir-birimizə göz aydınlığı ilə deyəcəyik: "Bizim ellər yerindədir!".

...O sevincdən ən çox pay düşənlərdən biri isə otuz ilə yaxındır ki, bu cavabı həsrətlə gözləyən İmamverdi müəllim olacaqdır!!!

Hekayələrinin birində oxumuşdum... Rəhmətlik anasının sümüyümə, iliyimə hopmuş duaları idi bu: "Bala, cüyürə dırnaq, tısbağaya çanaq, kirpiyə ox verən Allah, sənə də bəxt çörəyi yetirəcək!.."

Və o böyük ananın böyük ruhu indi şaddır ki, öz övladı ilə bağlı bu müqəddəs duaları çin olub...

***Musa QULİYEV,***
***Milli Məclisin deputatı***

# Əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarəti sistemi təkmilləşdirilir



Dünən Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində Dövlət Əmək Müfəttişliyi Xidmətinin fəaliyyətinin, əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi məsələlərinin müzakirəsi, bu sahədə qarşıda duran vəzifələrin müəyyən olunması məqsədilə müşavirə keçirilib.

Nazir Sahil Babayev Prezident İlham Əliyevin uğurlu sosial-iqtisadi inkişaf strategiyası nəticəsində ölkəmizdə yeni iş yerlərinin açılmasının daimi xarakter aldığını, əhalinin məşğulluq səviyyəsinin artdığını, əmək bazarında sabitlik və inkişaf tempinin mövcud olduğunu vurğulayıb. Əmək bazarında qanunvericiliyin icrasına nəzarət, işçi hüquqlarının təminatı prinsiplərinin gücləndirilməsinin vacibliyini diqqətə çatdırıb.

Bu istiqamətdə Dövlət Əmək Müfəttişliyi Xidmətinin fəaliyyətinin hazırda tələb olunan səviyyədə olmadığını qeyd edən S.Babayev bildirib ki, ilk növbədə, əmək müfəttişliyi sistemində, məmur-sahibkar münasibətlərində şəffaflıq tam təmin edilməli, korrupsiyaya şərait yaradan halların qarşısı alınmalı, vətəndaş müraciətlərinin hər biri ilə bağlı qısa vaxtda, operativ araşdırmalar aparılmaqla nəticəsinə əsasən qanunauyğun tədbirlər görülməli, bu sahədə süründürməçilik hallarına yol verilməməlidir.

Nazir qeyri-rəsmi məşğulluğun qarşısının alınmasının mühüm sosial-iqtisadi əhəmiyyətini vurğulayıb. Qeyd edib ki, Dövlət Əmək Müfəttişliyi Xidməti dövlət başçısının 2017-ci il 9 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında qeyri-rəsmi məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı"nın icrasında konkret nəticələrə nail olmaqla, qeyri-rəsmi əmək münasibətlərinin leqallaşdırılması sahəsində məqsədyönlü tədbirlərlə ölkənin sosial-iqtisadi inkişafına öz dəyərli töhfəsini verməlidir. Bu sahədə nazirliyin elektron informasiya sisteminin aidiyyəti dövlət qurumlarının elektron informasiya sistemlərinə inteqrasiyası vacib əhəmiyyət daşıyır.

S.Babayev vurğulayıb ki, dövlət başçısının təşəbbüsünə əsasən, qəbul edilmiş qanunla sahibkarlıq subyektlərində yoxlamaların aparılması 2021-ci ilədək dayandırılıb və bu qanunun tələblərinə Dövlət Əmək Müfəttişliyi Xidməti tərəfindən də ciddi riayət olunmalıdır. "ASAN xidmət"in Əmək Münasibətlərinin Monitorinqi Mərkəzi tərəfindən tikinti sahələrində aparılan monitorinqlərin nəticələri ilə bağlı xidmət aidiyyəti araşdırmalarını operativ şəkildə yerinə yetirməlidir. Bununla bərabər, bu sahədə tətbiq edilən "ASAN xidmət" modelinin əmək müfəttişlyi sistemi tərəfindən tətbiqi, eyni zamanda, əmək hüquqlarının təminatına nəzarət mexanizminin qabaqcıl beynəlxalq təcrübə əsasında elektron nəzarət sistemi üzərindən həyata keçirilməsi, "elektron protokol" layihəsinin tətbiqi məqsədəuyğun ola bilər.

Nazir diqqətə çatdırıb ki, istehsalat qəzaları ilə bağlı təhqiqat işlərinin aparılmasında operativlik artmalı və adekvat tədbirlər görülməli, eyni zamanda, belə qəzaların qarşısının alınması, ümumən əməyin təhlükəsizliyi üçün önləyici tədbirlər barədə işəgötürənlərin geniş məlumatlandırılması, istehsalatda baş verən bədbəxt hadisələrin səbəblərinin təhlil olunaraq, belə hadisələrin baş verməməsi üçün preventiv tədbirlərlə əlaqədar aidiyyəti qurumlara müvafiq təkliflər verilməsi işləri aparılmalıdır. Habelə, əmək qanunvericiliyinin pozulması halları ilə bağlı inzibati tədbirlərin görülməsi ilə iş yekunlaşmamalı, müvafiq sahədə işəgötürənlərə fəal şəkildə metodiki dəstək göstərilməlidir. Xidmət öz fəaliyyətini nazirliyin digər struktur bölmələri, xüsusilə də nazirlik yanında Dövlət Məşğulluq Xidməti, Dövlət Sosial Müdafiə Fondu ilə əlaqəli, habelə sosial tərəfdaşlarla - həmkarlar və işəgötürənlər təşkilatları ilə fəal əməkdaşlıq müstəvisində qurmalı və bu fəaliyyət işçi hüquqlarının müdafiəsində vətəndaş məmnunluğuna səbəb ola biləcək praktik nəticələri özündə ehtiva etməlidir.

S.Babayev vurğulayıb ki, ümumilikdə əmək bazarı iştirakçılarının qanuni mənafelərinin qorunmasında və ümumən əmək bazarının iqtisadi inkişaf prosesinə uyğun tənzimlənməsində Dövlət Əmək Müfəttişliyi Xidmətinin rolunun artırılması və beynəlxalq innovativ təcrübələrdən irəli gələn səmərəli iş mexanizmlərinə malik olması üçün ciddi islahatlar aparılmalıdır. Nazir bununla bağlı təkliflər paketinin hazırlanmasını tapşırıb.

Müşavirədə əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarəti sahəsində mövcud vəziyyət müzakirə olunub, qarşıda duran vəzifələr müəyyən edilib, müvafiq tapşırıqlar verilib.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# İqtisadi xəbərlər

## Aİ-nin hesabatında "Azexport" və "Bir Pəncərə" İxraca Dəstək Mərkəzinin fəaliyyəti yüksək qiymətləndirilib

Avropa İttifaqının (Aİ) Azərbaycanla bağlı hazırladığı "Azərbaycanda biznes mühiti 2018" adlı hesabatında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "Azexport" portalı və "Bir Pəncərə" İxraca Dəstək Mərkəzinin fəaliyyəti yüksək qiymətləndirilib.

Hesabatda qeyd edilib ki, "Azexport" portalı və "Bir Pəncərə" İxraca Dəstək Mərkəzinin fəaliyyəti ixracın şaxələndirilməsi sahəsində institutsional islahatların nümunəsidir. Prezident İlham Əliyevin fərmanları əsasında yaradılan bu qurumlar sahibkarlar üçün hərtərəfli imkanlar yaradaraq onların ixrac fəaliyyətlərinə dəstək göstərir.

Qeyd edək ki, hesabat Azərbaycanda fəaliyyət göstərən Avropa İttifaqı şirkətlərinin ölkədəki biznes mühiti barədə sorğusu əsasında hazırlanıb.

## BTC ilə 400 milyon tona yaxın neft nəql olunub

2006-cı ilin iyunundan istismarda olan BTC boru kəməri ilə bu il may ayının sonunadək ümumilikdə 396,2 milyon ton, yəni, təxminən 2 milyard 968,5 milyon barel xam neft nəql olunub.

Həmin neft Ceyhan limanında 3 min 886 tankerə yüklənərək dünya bazarına göndərilib.

Xatırladaq ki, hazırda BTC kəməri Azərbaycandan əsasən "Azəri-Çıraq-Günəşli" nefti və "Şahdəniz" kondensatı daşıyır. Bundan əlavə, boru kəməri vasitəsilə digər xam neft və kondensat həcmləri, o cümlədən Türkmənistan, Rusiya və Qazaxıstan nefti də nəql olunur.

Bu ilin birinci rübündə BTC üzrə əməliyyat xərclərinə təqribən 30 milyon, əsaslı xərclərə isə 5 milyon dollar sərf edilib.

## TAP: İtaliyada mikrotunellərin inşası davam edir

Azərbaycan təbii qazını Avropaya daşıyacaq Transadriatik (TAP) təbii qaz boru kəməri layihəsi üzrə İtaliyanın Puglia regionunda mikrotunellərin tikintisi davam edir.

Bu barədə boru kəmərinin operatoru olan TAP AG şirkəti məlumat yayıb. Bildirilir ki, mikrotunellərin inşası zamanı ən son texnologiyalardan istifadə edilir və ətraf mühitə təsir ən aşağı səviyyədədir.

Ötən ay AZƏRTAC-a eksklüziv müsahibəsində TAP AG-nin prezidenti Valter Peeraer deyib ki, TAP qaz boru kəməri layihəsi üzrə işlərin - mühəndis, təchizat və tikinti işləri də daxil olmaqla ümumilikdə 73 faizi icra edilib: "TAP boru kəmərinin inşası üzrə işlər qrafik üzrə gedir. Biz plan üzrə bütün işlərimizi uğurla davam etdiririk. İki il əvvəl başladığımız layihə boru kəmərinin keçdiyi bütün ölkələrdə - Albaniya, İtaliya və Yunanıstan ərazisində uğurla icra olunur. Demək olar ki, işlərin 73 faizi icra edilib. Albaniya və Yunanıstan ərazisində TAP layihəsinin icrası da uğurla davam etdirilir. Hər iki dövlətin hökumətləri tərəfindən bu istiqamətdə görülən işləri yüksək qiymətləndiririk. TAP-ın Adriatik dənizindən keçəcək hissəsi isə 2019-cu ilədək başa çatdırılacaq".

Xatırladaq ki, ilin əvvəlində Avropa İnvestisiya Bankının İdarə Heyəti Yunanıstan, Albaniya və Adriatik dənizindən keçərək İtaliyanın təbii qaz şəbəkəsinə qoşulmaq üçün Cənubi İtaliya sahillərinə çıxan TAP boru kəməri üçün 1,5 milyard avro məbləğində maliyyələşdirməni təsdiqləyib. Bank bildirir ki, layihə "Cənub qaz dəhlizi"nin bir hissəsidir və Avropa İttifaqının enerji siyasəti çərçivəsində strateji cəhətdən əhəmiyyətli bir komponent kimi Avropa Şurası, Avropa Komissiyası və Avropa Parlamenti tərəfindən müəyyən edilən təşəbbüsdür.

# Asəf HACIYEV: "Münaqişələrin həllində əsas prinsip dövlətlərin ərazi bütövlüyü olmalıdır"

Dünyanı qorumaq üçün münaqişələrin həllində əsas prinsip dövlətlərin ərazi bütövlüyü olmalıdır.



Bunu AZƏRTAC-a müsahibəsində Moskvada "Parlamentarizmin inkişafı" mövzusunda keçirilən Beynəlxalq forumun iştirakçısı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin baş katibi Asəf Hacıyev deyib.

Forumun təhlükəsizlik seksiyasındakı çıxışında xalqların öz müqəddəratını təyin etmək prinsipini qabardan Ermənistan parlamentinin spikeri Ara Babloyan bildirib ki, bütün münaqişələr bu çərçivədə həll olunmalıdır. Ara Babloyanın çıxışına cavab olaraq Asəf Hacıyev xatırladıb ki, dünyanın ən nüfuzlu beynəlxalq təşkilatları, o cümlədən Birləşmiş Millətlər Təşkilatı, Avropa Şurası tərəfindən dövlətlərin ərazi bütövlüyü əsas prinsiplərdən biri kimi qəbul olunub. Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxması ilə bağlı BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi, Avropa Şurasının qəbul etdiyi qərar var. Amma ən önəmli sənədlərdən biri Helsinki Yekun Aktıdır. Bu yaxınlarda bütün dünya bu sənədin 45 illiyini qeyd etdi və həmin sənəddə üç prinsip öz əksini tapıb: münaqişələrin sülh yolu ilə həll olunması (buna heç kəs etiraz etmir), dövlətlərin ərazi bütövlüyü və nəhayət, xalqların öz müqəddəratını təyin etmək prinsipi. Əgər xalqların öz müqəddəratını təyin etmək prinsipi şərtsiz həyata keçirilərsə, bu zaman dünyada yüzlərlə yeni kiçik dövlət yaranacaq, onlar bütün qonşularla müharibə edəcək, bu da dünyanın sonuna gətirib çıxaracaq.

"Mən forumun tribunasından Ermənistan parlamentinin spikerinə Rusiya Prezidenti Vladimir Putinin sözləri ilə müraciət etdim. Putin iki il bundan əvvəl BMT-nin Baş Assambleyasında çıxış etdiyi zaman belə bir cümlə işlətmişdi: "Siz dərk edirsinizmi ki, dünyanı nə günə qoydunuz?" Siz ümumiyyətlə danışanda başa düşürsünüz ki, dünyanı hara aparırsınız? Siz dünyanın sonunu gətirirsiniz. İstəyirsiniz ki, dünya məhv olsun? Bu prinsip yalnız dövlətlərin ərazi bütövlüyü çərçivəsində həyata keçirilə bilər", - deyən Asəf Hacıyev buna misal olaraq Aland adalarını nümunə gətirib. "Bu adalar ərazi baxımından Finlandiyaya aiddir, amma buradakı xalqlar İsveç mədəni dəyərləri ilə yaşayırlar. Dağlıq Qarabağda yaşayan ermənilər bilməlidirlər ki, Azərbaycanın ərazi bütövlüyü toxunulmazdır. Dövlətimizin başçısı dəfələrlə bəyan edib ki, Azərbaycanın bir qarış torpağı belə müzakirə obyekti ola bilməz", - deyə Asəf Hacıyev Ermənistan parlamentinin sədrinə səslənib.

Asəf Hacıyev deyib: "Ərazi bütövlüyü prinsipinə qayıdarkən bir də vurğulamaq istərdim ki, hazırda Suriyada vəziyyət çox mürəkkəbdir. Amma Rusiya, İran, Türkiyə bəyan etdilər ki, Suriyanın ərazi bütövlüyü toxunulmazdır. Çünki artıq dünya başa düşür ki, bu prinsipdən geri çəkilmək olmaz. Ona görə dövlətlərin ərazi bütövlüyü dünyanın əsas prinsipidir, hər bir məsələ yalnız ərazi bütövlüyü çərçivəsində öz həllini tapa bilər. Xalqların öz müqəddəratını təyin etməsi ərazi bütövlüyü çərçivəsində olmalıdır. Heç bir dövlət razı olmaz ki, onun ərazisi başqasına verilsin. Ola bilsin iki dövlət sərhəddə dəyişiklik etmək qərarına gələ bilər. Bu, onların öz işidir. Azərbaycan xalqı, Azərbaycan Prezidenti də hər zaman bildirir ki, ölkəmizin ərazi bütövlüyü bizim üçün ən müqəddəs prinsipdir. Biz bundan heç vaxt geri çəkilməyəcəyik".

Forumdakı çıxışında A.Hacıyev, həmçinin hazırda çox yayılan kibertəhlükəsizlik məsələlərinə də toxunub. Qeyd edib ki, hazırda sürətlə inkişaf edən dünya iqtisadiyyatı yeni mərhələyə çatıb. Bu mərhələyə rəqəmsal iqtisadiyyat deyilir. Rəqəmsal iqtisadiyyat üçün çox təhlükəli olan kiberhücumların qarşısını almaq üçün yüksək texnologiyalar inkişaf etməlidir. Bu gün dünyanın ən bahalı sektoru informasiya texnologiyalarıdır. Bura sərf olunan vəsait hazırda dünya üzrə 4,5 trilyon dollara çatır. Müqayisə üçün deyim ki, neft sektoru təxminən 2,5-3 trilyon dollara, bank sektoru 3-3,5 trilyon dollara bərabər olduğu halda, informasiya texnologiyaları 4,5 trilyon dollar həcmində qiymətləndirilir və bu rəqəm ildən-ilə artır. Ekspertlərin qənaətinə görə, informasiya texnologiyalarına qoyulan vəsait beş il müddətində iki dəfə artıb. Ona görə təxminən 200 ildən sonra dünyanın ümumi daxili məhsulunun 80 faizi məhz informasiya texnologiyalarından əldə olunacaq. Bütün dünya hazırda öz gücünü bu istiqamətə yönəldir, ona görə də kiberhücumların qarşısı alınmalıdır. Çünki kiberhücumlardan əldə olunan böyük vəsaitlər silaha, narkotikə, insan alverinə xərclənir.

"Parlamentarizmin inkişafı" forumunda qəbul edilən deklarasiyada qeyd olunur ki, BMT səviyyəsində qərarlara hörmətlə yanaşılsın və bu qərarlar həyata keçirilsin. Bu da Azərbaycanın marağına cavab verir. BMT-nin Dağlıq Qarabağla bağlı dörd qətnaməsi var. Bu deklarasiyanın qəbul olunması bir daha təsdiqlədi ki, dünya bu qətnamələrin kağız üzərində qalmaması üçün çalışmalıdır. Aprel döyüşləri göstərdi ki, iqtisadiyyatı sürətlə inkişaf edən Azərbaycanın güclü ordusu var və o, öz ərazi bütövlüyünü bərpa etməyə qadirdir", - deyə Asəf Hacıyev vurğulayıb.

Qeyd edək ki, forumda 500-ə yaxın nümayəndə, o cümlədən 20 ölkənin parlament sədrləri, müxtəlif parlament assambleyalarının rəhbərləri, baş katibləri iştirak ediblər.










## Pal Zileri - İtaliya ənənələrinin təmsilçisi

40 illik tarixi olan Pal Zileri brendi dəb aləmində əsl İtaliya keyfiyyətli yüksək status göstəricisi olan bir brend kimi yerini tutmuşdur.

Pal Zileri - kişilər üçün dəbli geyimlərə yeni baxışdır. Yalnız İtaliyada istehsal olunan və bütün kostyumlarda əl işindən istifadə edilən Pal Zileri, bu gün dünyada tək kostyum yox, beş istiqamətdə yaradılan hər növ kişi geyim və aksesuarlar brendidir.

İstiqamətlərin hər biri müəyyən şərait üçün yaradılıb:

**Pal Zileri Ceremonia** - təntənəli tədbirlər üçün yaradılan geyimlər, **Pal Zileri Concept -** innovativ biçimi, detallara xüsusi diqqət yetirilən gündəlik geyimlər, **Pal Zileri Lab** - rahat, sərbəst və yüngül idman üslublu geyimlər, **Pal Zileri Sartoriale** - İtaliya dərzi ənənələrinə uyğun, bir çox əməliyyatlarda əl işindən istifadə olunmuş, daxili hissələri dəvə tükü ilə işlənmiş lyuks geyimlər, **Pal Zileri Su Misura** isə - fərdi tikilən geyimlərdir. Bütün kolleksiyalara həmçinin ayaqqabı, üst geyimləri, eynəklər və digər aksesuarlar daxildir. Tikilişdə yalnız ən yüksək keyfiyyətli kaşemir, yun və digər parçalardan istifadə olunur.

2018 yaz-yay kolleksiyası retro üslubunda yaradılıb. Torpaq və boz rənglərindən istifadə olunmuş bu kolleksiya ən tələbkar kişilərin zövqünə uyğun olacaq. Müasir, qabaqcıl, dəbli və nüfuzlu kişilərin seçimi olan Pal Zilerini Mixael Şumaxer, Nikita Mixalkov, Silvio Berluskoni kimi məşhurlar və siyasətçilər də seçir.

**Pal Zileri mağazası Neftçilər prospekti 83 ünvanında yerləşir.**

**Tel: +99412 492-22-49; +99412 492-82-87**
**Mob: +99450 385-50-73**


# Qəbələdə "Tarixin canlı səhifələri" adlı VI Gənclər Festivalı olub

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 və ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illik yubileyləri münasibətilə Qəbələ rayonunda "Tarixin canlı səhifələri" adlı VI Gənclər Festivalı keçirilib.





AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Gənclər və İdman Nazirliyinin təşkilatçılığı, Dövlət Sərhəd Xidmətinin, Qəbələ Rayon İcra Hakimiyyətinin dəstəyi ilə rayonun Vəndam qəsəbəsində keçirilən festivalda müsəlman Şərqində ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranması peşəkar artistlər və tələbələr tərəfindən tarixi faktlar əsasında hazırlanan tamaşada nümayiş olunub. Hər tərəfi dağlarla əhatə olunan yaşıl sahədə qurulan səhnədə keçirilən festivalda Akademik Milli Dram, Gənc Tamaşaçılar, Rus Dram, Şəki Dövlət Dram və Mingəçevir Dövlət Dram teatrlarının aktyorları çıxış ediblər.

Layihənin elmi rəhbəri, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Tarix İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, Milli Məclisin deputatı, akademik Yaqub Mahmudov, rejissoru xalq artisti Vaqif Əsədov, ssenari müəllifi, filologiya elmləri doktoru, AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun şöbə müdiri Asif Rüstəmlidir. Festival çərçivəsində Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına və ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinə həsr edilmiş xüsusi dekorasiyalı sərgi təqdim olunub. Gəncləri vətənpərvərlik ruhunda tərbiyə etmək, xalqımızın hərb tarixini, 1918-ci ilin mart soyqırımını, Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasını və 23 aydan sonra süqut etməsini gənclərə əyani olaraq çatdırmaq məqsədilə keçirilən festival maraqlı səhnəciklərlə yadda qalıb. Tamaşa 1918-ci ilin martında azərbaycanlıların Novruz bayramını qeyd edərkən qəflətən quldur ermənilərin hücumuna məruz qalması və amansızlıqla qətlə yetirilməsi səhnəsi ilə başlayıb. Sonra Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və fəaliyyəti, insanların o dövrdəki yaşayışı milli geyimli aktyorlar tərəfindən peşəkarlıqla canlandırılıb.

Tədbirdə gənclər və idman naziri Azad Rəhimov, rayon icra hakimiyyətinin, idarə və təşkilatların rəhbər şəxsləri, eləcə də 1500-dən çox aktyor, xalq sənətkarı, gənclər və məktəblilər iştirak ediblər.

Festival atəşfəşanlıqla başa çatıb.

# Hərbi Dəniz Qüvvələrinin praktiki təlim məşqləri keçirilib









Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, məşqlərin ilkin mərhələsində gəmi qruplarının, hissə və bölmələrin cəmləşmə rayonlarına çıxışı, şəxsi heyətin üzməyə hazırlanması və döyüş uzlaşması tədbirləri icra olunub. Sonrakı mərhələlərdə gəmilər şərti düşmənin üzən minaları, dəniz və hava hədəflərini dəqiq atəşlə məhv ediblər.

Təlim məşqlərinə cəlb olunan şəxsi heyət qarşıya qoyulan bütün tapşırıqları müvəffəqiyyətlə yerinə yetirib.

# BMX üzrə dünya çempionatının üçüncü günü maraqlı idman mübarizəsi ilə yadda qalıb

Bakıda velosiped idmanının BMX növü üzrə dünya çempionatının üçüncü günündə - iyunun 7-də yeniyetmələr, həvəskarlar və "Masters" kateqoriyasında qaliblər müəyyənləşib.





AZƏRTAC xəbər verir ki, 13 yaşlı oğlanların mübarizəsində avstraliyalı Tomas Tuker çempion adını qazanıb. Danimarkalı Hyalt Beç Feldt ikinci, fransalı Leo Akkord üçüncü pillədə qərarlaşıblar.

On dörd yaşlı oğlanların yarışında Avstraliya velosipedçisi Cordan Kallum birinci, Belçika idmançısı Vannes Maqdeliyns ikinci, ekvadorlu Pedro Xose Benalkazar Querrero üçüncü pillənin sahibi olublar.

Argentinalı Qianni Antonio Daddona 15 yaşlı velosipedçilər arasında fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. İtaliyalı Tommaso Qasparoli və niderlandlı Tim Qussens ilk üçlüyü tamamlayıblar.

Çempionatda 16 yaşlılar arasında Fransa idmançısı Tatyan Lui Hin Tsan bütün rəqiblərini qabaqlayıb. Latviyalı Niks Rozukalns yarışı ikinci, Yeni Zelandiya idmançısı Tasman Vakelin üçüncü yerdə başa vurublar.

On üç yaşlı qızların mübarizəsində Yeni Zelandiya idmançısı Leila Valker fərqlənib. Niderland velosipedçisi Lissi Van Şiyndel ikinci, çexiyalı Sabina Kosarkova üçüncü yeri tutublar.

Avstraliyalı Kira Hill 14 yaşlı qızlar arasında birinci pilləyə yüksəlib. Böyük Britaniya idmançıları Emma Ceffers və Cennifer Rozenmuller ilk üçlükdə qərarlaşıblar.

Mundialda 15 yaşlı qızların yarışında britaniyalı Lauren Anyon dünya çempionu adına sahib olub. Fransa velosipedçiləri Mariana Beltrando və Kapuçina Favre müvafiq olaraq ikinci və üçüncü pillədə yer alıblar.

On altı yaşlı qızların mübarizəsində isə İsveçrə idmançısı Nadine Aeberhard birinci yeri tutaraq ölkəsinin aktivinə qızıl medal yazdırıb. Argentinalı Aqustina Kavalli ikinci yerlə kifayətlənməli olub. Belçikalı Marte Qusens isə üçüncü yerdə qərarlaşıb. Həvəskar oğlanlar arasında 17-24 yaş kateqoriyasında Niderland idmançıları Kevin Spanninq və Rodi Van Den Heuvel ilk iki pillədə qərarlaşıblar. Böyük Britaniya təmsilçisi Ryan Stak üçüncü yeri tutub.

Kişilər arasında 25-29 yaş kateqoriyasında niderlandlı Robin Van Der Kolk çempion adını qazanıb. Latviyalı Klavs Lisovskis ikinci, braziliyalı Mathes Ferreire Povoas üçüncü yerdə qərarlaşıblar.

Mundialda 30-34 yaş kateqoriyasında kişilərin mübarizəsində Böyük Britaniya idmançısı Skott Vaterhaus bütün rəqiblərini qabaqlayıb. İspaniya velosipedçisi Xavier Manuel Morales Qonzales və latviyalı Kristaps Ozolins ilk üçlüyü tamamlayıblar.

Çempionatda 35 və daha yuxarı yaş qrupunda kişilərin yarışında yeni zelandiyalı Tim Ferqusan fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Portuqaliya idmançısı Huqo Martinz və çilili Felipe Perez müvafiq olaraq ikinci və üçüncü yerdə qərarlaşıblar.

Yarışda 17-24 yaş kateqoriyasında qızların mübarizəsində Böyük Britaniya idmançıları Şarlotte Qrin və Lauren Stik ilk iki pilləyə yüksəliblər. Fransa idmançısı Salome Ernotte üçüncü olub.

Qadınların 25 və yuxarı yaş qrupunda Niderland idmançısı Lieke Klaus birinci, Çili velosipedçisi Karlo Ortiz ikinci və niderlandlı Suela Ruitenqa üçüncü yeri tutublar.

"Masters" kateqoriyasında 30 və yuxarı yaş qrupunda ABŞ idmançısı Teylor Braun dünya çempionu olub. Venesuelalı Conatan Suarez və kolumbiyalı Xose Luis Diaz Montana ilk üçlükdə yer alıblar. Start xəttinə çıxan Azərbaycan velosipedçiləri Orxan Məmmədov, Vüqar Nəsibov, Kənan Babayev və Yelmar Şahmarzadə mükafatçılar sırasında yer ala bilməyiblər.

Mükafatlandırma mərasimində fəxri kürsüdə yer alan idmançılara medallar təqdim olunub.

Medalları və mükafatları qaliblərə Azərbaycan Velosiped İdmanı Federasiyasının vitse-prezidenti, Avropa Velosipedçilər Birliyinin Rəhbər Komitəsinin üzvü Sahib Ələkbərov və Beynəlxalq Velosipedçilər İttifaqının idman direktorunun müavini, BMX şöbəsinin rəisi Peter Van Den Abel təqdim ediblər.

Mükafatlandırma mərasimindən sonra elit kateqoriyasında idmançıların məşq yürüşləri keçirilib.

# Bakıda "Təhsilin strateji planlaşdırılması: düşüncələr və perspektivlər" mövzusunda beynəlxalq konfrans keçirilir






İyunun 7-də ADA Universitetinin Avropa İttifaqının Bakıdakı nümayəndəliyinin dəstəyi ilə keçirdiyi "Təhsilin strateji planlaşdırılması: düşüncələr və perspektivlər" mövzusunda ikigünlük beynəlxalq elm və təhsil konfransı işə başlayıb.

AZƏRTAC xəbər verir ki, konfransın açılış mərasimində ADA Universitetinin prorektoru Vəfa Kazdal tədbirin "Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası"na həsr olunduğunu bildirib. Prorektor konfransda bu sənədin qəbulundan sonra əldə olunan nəticələrin təhlil ediləcəyini və bu istiqamətdə müzakirələrin aparılacağını diqqətə çatdırıb. Beynəlxalq tədbirə 50-dən çox tədqiqat işinin təqdim olunduğunu deyən V.Kazdal qeyd edib ki, müstəqil elmi şura tərəfindən 15 tədqiqat işi seçilib. Konfrans çərçivəsində ADA Universitetinin Təhsil İnstitutunun bu il təhsilin idarəedilməsi ixtisası üzrə məzun olan ilk buraxılışının diplom işləri və apardıqları elmi araşdırmanın nəticələri ətrafında da fikir mübadiləsi aparılacaq. Tədbir iştirakçıları təhsilin müxtəlif səviyyələrində tətbiq edilən aparıcı beynəlxalq təcrübə ilə tanış olacaqlar.

Təhsil naziri Ceyhun Bayramov "Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası" çərçivəsində bir sıra hədəflərə çatmaq istiqamətində mühüm addımlar atıldığını, vacib nailiyyətlərin əldə edildiyini bildirib. Nazir məlumat verib ki, 2008-ci ildən başlayaraq ümumtəhsil müəssisələrində yeni kurikulumların tətbiqi prosesi başa çatmaqdadır. Artıq növbəti tədris ilində yeni kurikulumlar XI sinifdə tətbiq ediləcək. Azərbaycan 2019-cu ildə TİMSS beynəlxalq qiymətləndirməsində də iştirak edəcək, bu nəticələrin təhlili də məzmunun təkmilləşdirilməsi, şagird nailiyyətlərinə təsir göstərən amillərin müəyyənləşdirilməsi baxımından böyük əhəmiyyət daşıyacaq. Bundan əlavə, tədris planlarının strukturu, dərs yükünün həcminin şagird nailiyyətlərinə və sağlamlığına təsiri, ayrı-ayrı fənlərin məzmun və qiymətləndirmə çərçivələri istiqamətində tədqiqatlar Təhsil Nazirliyinin maraq dairəsindədir.

Müəllimlərlə bağlı da bir sıra nailiyyətlərin əldə edildiyini deyən nazir bildirib ki, ölkənin tarixində ilk dəfə 130 mindən artıq müəllim diaqnostik qiymətləndirməyə cəlb olunub, onların müvafiq ehtiyacları müəyyənləşdirilib. Diaqnostik qiymətləndirməyə cəlb edilmiş müəllimlərin həftəlik dərs yükü norması 1,5 dəfə artırılmaqla əməkhaqları iki dəfə artıb. Müəllim işləmək arzusunda olan insanların sayı üç dəfə çoxalıb. Hazırda istər ilk peşə-ixtisas təhsili, istərsə də ali təhsil sahəsində bir sıra mühüm layihələr həyata keçirilir.

Son illərdə iki hədəfə nail olunduğunu deyən C.Bayramov bildirib ki, ali təhsil müəssisələrinə qəbul edilmiş abituriyentlərin sayı əsaslı, təxminən 4 min nəfər (12 faiz) artıb, eyni zamanda, ali təhsil müəssisələrinə qəbul balı yüksəlib (179 baldan 239 bala, 60 bal və ya 33,5 faiz). Bununla belə, peşə və ali təhsil müəssisələrində tədris olunan proqramların məzmunu, hazırda əmək bazarında baş verən əsas tendensiyalar, innovasiya və startaplar istiqamətində bir sıra mühüm tədqiqatların aparılmasına ehtiyac var.

Dövlət İmtahan Mərkəzi (DİM) Direktorlar Şurasının sədri Məleykə Abbaszadə bildirib ki, son illər milli təhsilimizin inkişafında yeni mərhələ başlanıb. Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən islahatlar, modelləşdirmə, quruculuq işləri ölkəmizdə təhsilin keyfiyyətini yüksəldir. Ölkədə iqtisadi kapitalın insan kapitalına çevrilməsi müşahidə edilir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü və rəhbərliyi altında aparılan islahatlar, görülən tədbirlər, qazanılan nəticələr bundan sonrakı illər üçün də dərin nikbinlik yaradır.

"Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası" çərçivəsində görülən işlər barədə məlumat verən M.Abbaszadə dərsliklərin monitorinqində, yeni qaydaların qəbul olunmasında, müasir modellərin hazırlanmasında və digər məsələlərdə rəhbərlik etdiyi qurumun fəaliyyətini diqqətə çatdırıb.

DİM Direktorlar Şurasının sədri gələn il 9-cu siniflərlə yanaşı, 11-ci sinif şagirdlərinin də yeni proqramlar üzrə buraxılış imtahanı verəcəklərini diqqətə çatdırıb.

Tədbirdə Böyük Britaniyanın Oksford Universitetinin professoru Deyvid Briksin konfrans iştirakçılarına videomüraciəti təqdim olunub.

Daha sonra konfrans işini "Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası"na dair dörd istiqamətdə - "Bacarıqlara əsaslanan təhsil məzmununun inkişaf etdirilməsi", "Təhsil sistemində insan resurslarının müasirləşdirilməsi", "Şəffaf və səmərəli idarəetmə mexanizmlərinin formalaşdırılması" və "Son texnoloji tələblərə cavab verən infrastrukturun yaradılması" panelləri üzrə davam etdirib.

# Ermənistanın xilası işğala son qoymasındadır

## N.Paşinyan bunu təmin etməsə, onun da aqibəti S.Sarkisyan kimi olacaq

Ermənistan-Azərbacan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün hüquqi və siyasi addımlar beynəlxalq hüququn norma və prinsipləri, BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələri, ATƏT-in, Avropa Şurasının və digər beynəlxalq təşkilatların müvafiq sənəd və qərarlarına əsaslanır.

Bu təşkilatların müvafiq sənədlərində işğalçı qoşunların Azərbaycanın bütün işğal edilmiş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələb edilsə də, Ermənistan bütün dünyanın gözü qarşısında buna məhəl qoymur.

Aparılan sülh danışıqlarına gəldikdə isə bu məsələ artıq ilk vaxtlardan regional müstəvidən çıxaraq beynəlxalq əhəmiyyət kəsb etməyə başlayıb. Lakin ATƏT-in Minsk qrupu vasitəsilə aparılan sülh danışıqları da 1994-cü ildəki atəşkəs razılaşmasından bəri hələ də nəticəsizdir. 1994-cü ildən başlayaraq problemin həlli ilə bağlı bir neçə variant nəzərdən keçirilib. Amma bütün həll variantları məhz Ermənistanın qeyri-konstruktivliyi ucbatından alınmayıb. Azərbaycan problemin həllinə dair vasitəçilərin təqdim etdiyini hər bir variantı dəstəkləsə də, Ermənistan bunu etməyib və həm birbaşa, həm də dolayısı regiondakı status-kvonun dəyişməz qalmasına çalışıb.

Bunun da əsas səbəblərindən biri Ermənistanda son 20 ildə hərbi cinayətlər törətmiş və zaman keçdikcə kriminallaşmış rejimin hakimiyyəti öz əlində saxlaması idi. R.Koçaryan və ondan sonra isə prezidentliyə yiyələnmiş S.Sarkisyan Dağlıq Qarabağda əllərini dinc azərbaycanlıların qanına bulaşmış müharibə cinayətkarları, uşaq qatilləridir. Məhz bu insanların son 20 ildə Ermənistanda hakimiyyəti əllərində saxlamaları erməni cəmiyyətinin onsuz da ağır durumunu daha acınacaqlı etdi. Bu illərdə yüz minlərlə erməni dözülməz həyat şəraiti ucbatından xaricə üz tutub. Cinayətkar rejim ölkəni tamamilə kriminal şərtlərlə idarə edib. Siyasi baxışlarına görə insanlar təqib edilib, elementar hüquq və azadlıqlar kobudcasına pozulub.

Ermənistanın terrorçu və cinayətkar rejimi öz mahiyyətinə uyğun olaraq bu illərdə aparılan sülh danışıqlarında da qeyri-konstruktiv olub, aqressiv mövqe nümayiş etdirib. Nəticə etibarilə bunun da ağrı-acısını Ermənistan və onun əhalisi çəkib. Çünki Azərbaycan Ermənistanı işğalçı siyasətinə əvəz olaraq Cənubi Qafqazda tamamilə təcrid vəziyyətinə salıb, onu bütün layihələrdən kənarda saxlayıb. Beləliklə, bu ölkə öz təcavüzkar işğalçı siyasətinin qurbanı olub.

Bu yaxınlarda Ermənistanda prezident seçkilərindən sonra yaranmış vəziyyət, hərbi xuntanın öz iqtidarını davam etdirmək niyyəti geniş etirazlara səbəb oldu və S.Sarkisyanın baş nazir kimi ölkəyə rəhbərlik etmək niyyəti puça çıxdı. Yalnız indi, ölkəyə tamamilə başqa adamın baş nazirlik etməsindən sonra erməni ictimaiyyəti ötən 20 ildə Ermənistanda kriminal rejimin iqtidarda olduğunu etiraf edir. Müqəddəs Ramazan ayı münasibətilə iftar mərasimində Prezident İlham Əliyev diqqəti bu məsələyə yönəldərək deyib: *"Nəhayət, indi erməni xalqı anlayıb ki, onlara 20 il ərzində kriminal xunta rejimi rəhbərlik edib. O kriminal xunta rejimi ki, ancaq öz maraqlarını güdür, o rejim ki, onun yarıtmaz və cinayətkar fəaliyyəti nəticəsində Ermənistan bu acınacaqlı vəziyyətə düşüb. Mən dəfələrlə demişdim ki, Ermənistanda iqtisadi böhran, demoqrafik böhran yaşanır, ölkə boşalır, hər il on minlərlə insan o ölkəni həmişəlik tərk edir, Ermənistanda inkişaf üçün heç bir perspektiv yoxdur. Demişəm ki, Azərbaycan Ermənistanı dalana çevirib, iqtisadi, siyasi, nəqliyyat dalanına çevirib. Nəyə görə? Ona görə ki, Ermənistan torpaqlarımızı işğal edibdir. İndi bütün bunları erməni xalqı deyib və deyir. Bu, bir daha onu göstərir ki, bu münaqişədə Azərbaycan öz istədiyinə nail olacaq, həqiqəti, ədaləti bərpa edəcək"*.

Azərbaycan ərazilərinin işğal altında saxlanılması Ermənistana və onun xalqına fəlakətdən, yoxsulluqdan başqa heç nə gətirməyəcək. Odur ki, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı status-kvonun dəyişməsi Azərbaycan üçün nə qədər vacibdirsə, Ermənistan üçün daha önəmlidir. Status-kvonun dəyişməsi ilə bağlı həmsədrlər də dəfələrlə açıq bildirsələr də ortada bir nəticə yoxdur. Çünki Ermənistan indiyədək müxtəlif bəhanələr gətirməklə münaqişənin sülh yolu ilə həllini uzadıb.

Artıq Ermənistanda rəhbərlik dəyişib. Nikol Paşinyan məhz S.Sarkisyan hakimiyyətinin səhvləri üzərində hakimiyyətə gəlib. Hansı ki, bu səhvlərdən biri S.Sarkisyanın öz xalqını yoxsulluq və səfalət içində saxlaması idi. Bunun da əsas səbəbi əvvəldə qeyd edildiyi kimi, Azərbaycanın Ermənistanı təcavüzkar siyasətinə görə cəzalandırması idi. Odur ki, Ermənistanın yeni rəhbərliyi xalqın rifahını və dövlətin inkişafını təmin etmək üçün ilk növbədə, sülh danışıqlarında konstruktiv olmalı, təcavüzkar siyasətə son qoymalı, işğal olunmuş Azərbaycan ərazilərindən qoşunları çəkməlidir. "Ümid edirəm ki, Ermənistanın yeni rəhbərliyi əvvəlki hakimiyyətin səhvlərini təkrarlamayacaq və münaqişənin tezliklə həll olunması üçün ciddi işlər görəcək və imitasiya naminə yox, real danışıqlar prosesinə start veriləcək. Beləliklə, məsələ öz həllini tapa bilər və Qafqaza sülh gələ bilər. Biz bunu istəyirik, biz münaqişənin həllini tələb edirik, bizim buna haqqımız çatır. Ümid edirik ki, bu məsələ danışıqlar yolu ilə tezliklə öz həllini tapa bilər" - deyə Prezident İlham Əliyev bildirib.

N.Paşinyanın xalqa verdiyi vədləri yerinə yetirə bilməsi üçün ən optimal variant işğala son qoyulmasını təmin etməkdir. Əgər bunu edərsə, bu onun erməni xalqı qarşısında ən böyük tarixi xidməti olacaq. Çünki acınacaqlı vəziyyətdə olan bir xalqın və dövlətin xilası üçün ən yaxşı yol ilk növbədə, onu təcrid vəziyyətindən çıxarmaqdır. Bunun üçün isə mütləq Azərbaycan torpaqlarının işğalına son qoyulmalıdır. Əgər bunlar baş verməyəcəksə, N.Paşinyan hakimiyyətindən yeni nəsə gözləməyə dəyməz və nəticə etibarilə onun da aqibəti S.Sarkisyan kimi olacaq.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# N.Paşinyan indi də Qarabağda çevrilişə hazırlaşır

## *Yerevanda isə artıq katolikosun istefası tələb olunur*

*Əvvəli 1-ci səh.*

### Ruhanilər korrupsioner dini liderə qarşı kütləvi etirazlara başlayıb





Etiraz aksiyasının iştirakçıları tələb edirlər ki, ikinci Qaregin Ali patriarx və bütün ermənilərin katolikosu adından imtina etsin. Etiraz edənlər arasında ruhanilər də yer alır. Dini qurumun dəftərxanasının kahini Baqram Melikyan öz sosial şəbəkə səhifəsində yazıb ki, katolikos etiraz edənlərlə görüşməyə hazırdır: "Bütün ermənilərin katolikosu adından etiraz edənlərə qədim paytaxt olan müqəddəs Eçmiədzinə baş çəkmək və ikinci Qareginlə görüşmək barədə dəvət çatdırılıb. Etiraz aksiyası nümayəndələrinin öz şikayətlərini və suallarını şəxsən katolikosun özünə təqdim etmək imkanları olacaq". Amma Ermənistanın ən ali dini liderinə qarşı etiraz aksiyasının iştirakçıları bildiriblər ki, görüş açıq formatda keçiriləcək.

Qeyd edək ki, ikinci Qaregin bütün ermənilərin katolikosu və ali patriarx postuna 1999-cu ildə seçilib. Onun Ermənistanda və xaricdə böyük biznesinin olduğu isə heç kimə sirr deyil. Hətta bir müddət əvvəl Qareginin adı İsveçrənin HSBC bankının hesablarında ortaya çıxıb. HSBC bankının açıqladığı siyahıda Ermənistan 10 nəfərlə yer alıb. Məlumatlara görə, onlardan 4-ü erməni əsilli və ya vətəndaşlığındadır. Təkcə 2006-2007-ci illərdə "ikinci Qaregin Nerses" adlı şəxsi hesaba 1,1 milyon dollar qoyulub.

Qareginin adı ilk dəfə 2000-ci ildə HSBC bankının müştəri siyahısında ortaya çıxıb. İndinin özündə də Ermənistanda bəzi biznes sahələri bu şəxsin nəzarətindədir. Bütün bunlarla isə ermənilər barışmaq istəmir.

### Ədalət küçə mitinqlərində axtarılır

Baş verənlər hökumət başçısı Nikol Paşinyanı da ciddi narahat edir. Məsələ burasındadır ki, küçələrdə "öz fikrini ifadə etmək azadlığı" adı altında mitinqlər təşkil edə-edə hakimiyyətə gələn bu şəxs indi mitinqlərin ona ciddi ziyan vuracağından danışır. Amma erməni cəmiyyətinin beyninə yeriyib ki, məhz küçə mitinqlərinə bağlıdır. Buna görə də bir haqsızlıq görən kimi dərhal camaat mitinqə toplaşır. Ermənilərin bədbəxtçiliyi ondadır ki, üzlərini hara çevirirlərsə, haqsızlıq və yoxsulluq görürlər. Buna görə də mitinqlər fasiləsiz olaraq bütün istiqamətlərdə etirazlar üzrə davam edir.

Bu fonda Yerevandakı "Nairit" zavodunun işçiləri bir müddət əvvəl pozulmuş və hələ də düzəldilməyən hüquqlarının qorunması məqsədilə nümayişi davam etdirirlər. Bu problem bir neçə ildir davam edir, lakin oliqarxların hökmü qanunu üstələyən ölkədə əməkçilərin səsini eşidən yoxdur. Eynilə baş nazir Nikol Paşinyan da nə qədər pafosla danışsa da, köklü məsələlərin həllində acizdir.

### "Qarabağdakı ermənilər silahlı üsyana hazır olmalıdırlar"

Ümumiyyətlə, mitinq məsələsi Paşinyan üçün getdikcə geriyə qayıdış rəmzinə çevrilir. Qondarma "Dağlıq Qarabağ respublikası"nın keçmiş "müdafiə naziri", indi isə cinayətkar olan Samvel Babayanın tərəfdarları Yerevandakı kassasiya məhkəməsinin binası qarşısında yeni aksiyaya başlayıblar. Onlar düşünürlər ki, adi bir şəxs mitinq yolu ilə baş nazir ola bilirsə, onda cinayətkar da mitinqlərlə azadlığa çıxa bilər. Belə bir vəziyyət ölkədə baş alıb gedən gərginliyi daha da artırır.

Eyni vəziyyət Azərbaycanın Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş Dağlıq Qarabağ bölgəsində də özünü qabarıq göstərir. Burada fəaliyyət göstərən separatçı rejimin "milli təhlükəsizlik xidmətinin direktoru" Arşavir Karamyan və onun "müavini" Qarik Sarkisyan, həmçinin "polis xidmətinin rəisi" Kamo Ağacanyan tutduqları vəzifədən istefa veriblər. Həmçinin, Dağlıq Qarabağdakı qondarma qurumun "baş naziri" Araik Arutyunyan da istefa verib.

Separatçı rejimin "Milli dirçəliş" partiyasının üzvü Tiqran Qriqoryan bəyan edib ki, bütün bu istefalar heç də son günlər Qarabağdakı aksiyalara görə deyil. O, "Facebook"da canlı yayıma çıxaraq Qarabağdakı ermənilərə xəbərdarlıq edib. Bildirib ki, separatçı rejimin xüsusi xidmət orqanları Bako Saakyana qarşı silahlı qiyama hazırlaşır. Odur ki, Qarabağdakı ermənilər baş verəcək silahlı üsyana hazır olmalı və onun qarşısını almaq üçün qəti şəkildə fəaliyyətə keçməlidirlər.

### Xankəndidə vəziyyət gərgin olaraq qalmaqdadır

Son məlumatlara görə Qarabağın separatçı rejimindən istefa verənlərin yerinə "təyinatlar" aparılıb. Qarabağ separatçılarının lideri Bako Saakyan Araik Arutyunyanın yerinə "maliyyə naziri" Qriqori Martirosyanı təyin edib. Martirosyanın yerini isə Artur Arutunyan tutub. Qaramyanın istefa verdiyi "təhlükəsizlik xidməti" adlı qondarma qurumun rəhbərliyinə polkovnik Samvel Şahramanyan gətirilib. "Polis rəisi" vəzifəsindən istefa verən "general" Kamo Ağacanyanı isə polkovnik İqor Qriqoryan əvəzləyib.

Qeyd edək ki, 1 iyundan Xankəndidə vətəndaşların təhlükəsizlik xidməti əməkdaşları tərəfindən döyülməsindən sonra rejimin qanunsuzluğundan bezdiyini bildirən ermənilərin güc strukturlarının istefası tələbi ilə aksiyası başlamışdı. Azərbaycanın işğal altında olan Xankəndi şəhərində keçirilən aksiya Paşinyanın çağırışından sonra dayandırılmışdı. Amma burada yaşayan ermənilər bildirir ki, onlar Bako Saakyanın da vəzifəsindən dərhal getməsini istəyirlər. Bu olmasa, aksiyaların yenidən davam etdiriləcəyi bildirilir.

Ekspertlərə görə, Azərbaycanın işğal altındakı ərazilərindəki separatçı qurumda baş verən proseslər bir müddət öncə Ermənistanda cərəyan edən hadisələrin məntiqi davamı olmaqla yanaşı, qanunsuz rejimin və işğalçı hərbi birləşmələrin əhalini daim təzyiq altında saxladığını, ərazini bütövlükdə həbs düşərgəsinə çevirdiklərini göstərir.

### S.Sarkisyan Qarabağda öz adamlarının "hakimiyyət"də qalmasında maraqlıdır

Ekspertər bildirir ki, qarşıdakı günlər ərzində vəziyyət daha da pisləşəcək. Baş nazir N.Paşinyan isə Qarabağdakı separatçı rejimdə çevriliş etmək istəyir.

Erməni politoloq Aleksandr Kanayanın sözlərinə görə, "hakimiyyətdəki" mənbələr bildirib ki, Serj Sarkisyanın elçisi Dağlıq Qarabağa gələrək, Bako Saakyana etirazçıların tələbi qarşısında mövqeyini qorumağı tapşırıb. Lakin Kanayan deyir ki, Bako artıq Dağlıq Qarabağdakı qondarma qurumun "baş naziri" Araik Arutyunyanın istefasını qəbul etməklə vəziyyətin idarə edilməsində acizliyini göstərib.

Erməni mediasında qeyd olunur ki, Serj Sarkisyan Ermənistanda siyasi məğlubiyyətlə üzləşsə də, məhz Dağlıq Qarabağ vasitəsilə gələcək proseslərə, o cümlədən Paşinyana təsir etmək niyyətindədir. Bu baxımdan o, Qarabağda öz adamlarının "hakimiyyətdə" qalmasında maraqlıdır. Əks halda Sarkisyan bütün rıçaqlarından məhrum olacaq. Hələlik isə baş verənlər burada qarşıdurmanın daha da dərinləşəcəyini göstərir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# XİN: "Ermənistan tərəfi anlamalıdır ki, işğalçı ölkə ilə 25 ildən artıq danışıqların aparılması Azərbaycanın ən böyük güzəştidir"

"Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərində mövcudluğu və işğalın davam etməsi bilavasitə münaqişə tərəfi kimi Ermənistanın beynəlxalq hüquqi məsuliyyətini müəyyən edir".

AZƏRTAC xəbər verir ki, bu fikri Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev Ermənistanın baş nazirinin açıqlamasını şərh edərək deyib.

Hikmət Hacıyev bildirib ki, Ermənistan rəhbərliyi tərəfindən verilən bu kimi açıqlamalar münaqişənin həlli üzrə danışıqlar prosesini pozmağa və işğala əsaslanan status-kvonu saxlamağa yönəlmiş qeyri-konstruktiv addımdır. Ermənistan rəhbərliyini əldə edilmiş razılaşmaların kağız üzərində qalması narahat edirsə, onda BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin tələblərini yerinə yetirməlidir. Bu qətnamələrdə işğalçı qoşunların zəbt olunmuş Azərbaycan ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələb edilir.

"Ermənistanın yeni rəhbərliyinə xatırlatmaq istərdik ki, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin erməni icmasının da vətəndaş statusu dəyişməyib. Onlar Dağlıq Qarabağın Azərbaycan icması ilə birlikdə Azərbaycan Respublikasının vətəndaşları olaraq qalmaqda davam edirlər. Dağlıq Qarabağda cərəyan edən son proseslər bir daha nümayiş etdirdi ki, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin erməni icması mütəşəkkil cinayətkar qruplaşma və mafiya strukturunun total əsarəti və istismarındadır" - deyə XİN-in sözçüsü bildirib.

Mətbuat xidmətinin rəhbəri deyib ki, danışıqlar prosesi ilə əlaqədar Azərbaycan tərəfi öz mövqeyini açıq və birmənalı şəkildə dəfələrlə ifadə edib. Münaqişənin tezliklə həll edilməsi, regionda davamlı sülh və təhlükəsizliyin təmin edilməsi üçün Azərbaycan mövcud format və gündəlik əsasında danışıqların davam etdirilməsinə hazırdır. Danışıqların hədəfi Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılması, etnik təmizləməyə məruz qalmış azərbaycanlı məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtmasının təmin olunmasıdır. Ermənistan tərəfi anlamalıdır ki, işğalçı və təcavüzkar ölkə olan Ermənistanla 25 ildən artıq danışıqların aparılması Azərbaycanın ən böyük güzəştidir.

# Ermənistan silahlı bölmələri sutka ərzində atəşkəs rejimini 87 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan istifadə etməklə sutka ərzində atəşkəs rejimini 87 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Noyemberyan rayonunun Şavarşavan, İcevan rayonunun Berkaber kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Fərəhli, Qızılhacılı kəndlərində, Berd rayonunun Çinari kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi və Muncuqlu kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Nəmirli, Cəvahirli, Novruzlu, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qaraxanbəyli, Qorqan, Kürdlər, Horadiz və Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən ordumuzun mövqeləri atəşə tutulub.

# Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinq keçiriləcək

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, iyunun 8-də Tərtər rayonu ərazisində Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinqin keçirilməsi planlaşdırılır.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Oqnyen Yoviç və Saymon Tiller keçirəcəklər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinq şəxsi nümayəndə Anjey Kaspşik və onun səhra köməkçisi Mixail Olaru tərəfindən aparılacaq.




# Torpaq kəndlini ümidsiz qoymur

*Əvvəli 1-ci səh.*

Hazırda arpa biçininə 30 kombayn cəlb olunub. Həmişə olduğu kimi, bu il də Quba və Xaçmaz rayonlarının kombaynçıları öz həmkarlarına köməyə gəlmişlər. Taxıl biçini başa çatdırıldıqdan sonra isə Hacıqabul kombaynçıları onlara köməyə gedəcəklər. Hər gün orta hesabla 500-600 hektarın taxılını biçib döyürlər.

"Aqrolizinq" ASC Hacıqabul rayon filialının rəhbəri Yasər İbrahimovla Meyniman kəndinə gedirik. Rahat kənd yolu magistral yoldan heç də geri qalmır. Kür çayı boyunca yaraşıqlı, müasir evləri olan kənd abadlığı ilə də göz oxşayır. Sonuncu dəfə burada bir neçə il əvvəl - Kür çayında daşqın baş verən zaman olmuşduq. Onda kənd evlərinin, həyətlərin, əkin sahələrinin su altında qalması nəticəsində adamlar çox əziyyət çəkirdilər. Çiy kərpicdən tikilən evlər sel sularına davam gətirə bilməyib uçmuşdu. İndi isə dövlətin maddi dəstəyi sayəsində kənd büsbütün dəyişib. Sanki bura selin yuyub apardığı kənd deyil.



Taxılbiçən kombaynın yanına çatırıq. Sahənin kənarında iki nəfər dayanıb söhbət edirdi. Torpaq mülkiyyətçisi Niftəli Şirinov və yük maşınının sürücüsü Rafiq Cəfərov işlərinin yaxşı getdiyini deyirlər: "İnşallah, bundan sonra da yaxşı olar. Zəhmətini çəkdiyimiz zəmilərdə bol məhsul yetişib".

Sahənin o biri başından gələn kombayn bizə yaxınlaşır. İşığını yandırıb-söndürür. Niftəli Rafiqə üzünü tutub: "Hazırlaş, bunker dolub", - deyir. Kombayn zəminin kənarına çatıb dayanır. Niftəli əli ilə işarə edib kombaynın sürücüsünü çağırır. Onunla da görüşüb əhvalını, biçinin necə getdiyini xəbər alırıq. "Kombaynlara söz ola bilməz. həm rahatdır, həm də məhsuldar. Hər gün orta hesabla 15-16 hektarın taxılını biçirik", - deyir. N.Şirinov əlavə edir: "İndiki kombaynların tayı-bərabəri yoxdur. Kabinəsinə toz-torpaq girə bilmir. Kondisioneri 35-40 dərəcə istidə dağ havası sərinliyi yaradır".

N.Şirinov daha sonra deyir ki, ailə üzvləri ilə birlikdə 10 hektar torpağı var: "5 hektarı bu gördüyünüz arpa zəmisi, 5 hektarı da o biri tərəfindəki yoncalıqdır. Torpaq heç kimi ümidsiz qoymayıb. Əziyyət çəkəni dolandırıb. Sağ olsun dövlətimiz, indi kəndliyə hər cür qayğı göstərir. Subsidiya, güzəştli qiymətə gübrə verir. Pambığın qiymətinin artması hamını sevindirir. Belə bir şəraitdə dolana bilməyən gərək özündən küssün".

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# Yayın günəşli dənizi

## *Sumqayıtda çimərlik turizminin inkişafı üçün münbit şərait var*

Sumqayıtda reallaşdırılan layihələrdən biri dənizkənarı bulvarın və şəhər çimərliyinin yaradılmasıdır. Xəzərin sahilindəki bu kompleks Sumqayıtın simasını daha da gözəlləşdirmişdir.



Bulvarın uzunluğu 4,2 kilometrdir, dəniz səviyyəsindən 2,5 metr yüksəklikdə salınıb. 4,2 kilometr uzunluğunda 1,5 metr hündürlüyündə istinad divarı tikilib. Bulvarda 55 hektar ərazidə yaşıllıq zolağı yaradılıb. 160 mindən çox ağac və dekorativ kol, 2 milyondan artıq gül və çiçək əkilib. Yeri gəlmişkən, bulvarın genişləndirilməsi və yaşıllaşdırma işləri davam etdirilir.

Bulvar kompleksindəki yeniliklərdən biri avtomat suvarma sistemidir. Bu da yaşıllıq zolaqlarının qorunmasında əvəzsiz rol oynayacaqdır. 76 hektar ərazidə kommunikasiya xətləri çəkilib, işıqlandırma sistemləri quraşdırılıb. Sakinlərin rahat istirahəti üçün 600-dən çox oturacaq qoyulub. Bulvarın ərazisində 50 kölgəlik yaradılıb, fontan inşa edilib, velosipedçilər üçün xüsusi hərəkət zolağı və piyada yolu salınıb.

Ərazidə Bayraq meydanı tikilib, gəzinti gəmilərinin yan alması üçün dənizin içərisinə doğru 500 metr uzunluğunda tərsanə bu gözəlliyə xüsusi naxışlar qatır.

Bulvarda kiçik ölçülü gəzinti avtobusları və avtomobil yolu da salınıb. 3 kafe-çay evi, istirahət obyektləri, attraksionlar, kinoteatr, tennis kortu, futbol meydançaları, yay musiqi səhnəsi, ticarət və uşaqlar üçün əyləncə mərkəzləri yaradılıb.

Sumqayıt bulvarını fərqləndirən cəhətlərdən biri də onun çimərliyə birbaşa çıxışının olmasıdır. Burada vətəndaşların istirahətlərini mənalı təşkil etmək, asudə vaxtlarını səmərəli keçirmək üçün çox iş görülür.

Sumqayıtda turizmin inkişafına təkan verən cəhətlərdən biri də şəhərin sənaye potensialının yenilənməsidir. Başqa sözlə, neçə illərdir ki, Sumqayıtda sovet dönəmində olduğu kimi, zavodların tüstüsü şəhərə buraxılmır, ölkəmizin təmiz havaya malik olan şəhərlərindəndir və tullantısız sənaye mərkəzi kimi fəaliyyət göstərir. Bütün bunlar çimərlik turizminin inkişafına imkan verən amillərdir. Çünki Sumqayıtda dənizin sahilində səhərlər ətrafa yayılan yod qoxusuna görə çimərlik sözünə müalicəvi kəlməsini də əlavə etməliyik. Bundan düzgün istifadə etməklə çimərlik turizmini daha da genişləndirmək olar.

İkinci bir cəhət isə şəhərin dəniz səviyyəsindən yuxarıda yerləşməsidir. Bunun nəticəsi olaraq Sumqayıtda daim külək əsir. İsti yay günlərində əsən külək insana sərinlik gətirir. Çimərlik turizminin inkişafında isə əsas amillərdən biri təmiz havadır.

Şəhərdə çimərlik turizminin inkişafını şərtləndirən cəhətlərdən biri onun təbii mövqeyidir. Sərhədi keçən turist bir neçə saatdan sonra Sumqayıta çatır. Yeni infrastruktur və müasir yaşayış binaları ilə əhatələnən bu şəhərin Corat kəndi var. Turistlərin diqqətini bu kənddə cəlb edən çox şey mövcuddur. Yaşı yüzillərlə ölçülən məscid, tarixi qala divarları, qədim hamamlar, xan evi və digər xüsusiyyətləri bu turizmin reallaşması deməkdir.

Ümumiyyətlə, ölkə rəhbərinin möcüzə adlandırdığı Sumqayıt bulvarının salınması bir çox yeniliklərin təməlini qoydu. Az bir zamanda ətraf çirkabdan təmizlənib. Sıralanan istirahət mərkəzlərinin, demək olar ki, hamısında təmir işləri aparılıb. Sarıqaya istiqamətində yol təmir edilərək lazımi hala gətirilib.

Sumqayıt şəhər rəhbərliyi yay mövsümünün başlaması ilə əlaqədar çimərliklərdə əhalinin istirahətinin təşkili barədə xüsusi sərəncam imzalayıb. Çimərlik ərazilərində istirahət edənlərə lazımi səviyyədə xdmət göstərilməsi üçün ticarət, iaşə və digər xidmətlərin göstərilməsi qaydalarına əməl edilməsinə nəzarət artıb, sahilyanı zonalara giriş üçün pul yığılmasının qarşısı alınıb. Bu gün hər kəs dəniz sahilində sərbəst şəkildə istirahət edə bilir. Xidmət haqları bütün təbəqədən olan insanlar üçün müvafiqdir

Yay mövsümü ərzində çimərlik zonalarında xilasetmə işlərinin lazımi səviyyədə qurulması və tibbi yardımın göstərilməsi üçün də aidiyyəti təşkilatlara tapşırıqlar verilib. Şəhər hüquq mühafizə və səhiyyə müəssisələrinin xidmət komandaları bütün çimərlik boyu bir neçə yerdə növbə çəkir. Dəniz sahilində günvurmadan əziyyət çəkən vətəndaşa yerindəcə yardım göstərilir.

Çimərlik turizmini şərtləndirən cəhətlərdən biri də hotellərdir. Avropalılar hoteldə qalmaqdansa şəxsi evlərə üstünlük verirlər. Yaxınlıqdakı Novxanı və Corat kəndlərində evlərini turistlərə verən yüzlərlə insan var. Deməli, Sumqayıtda təkcə çimərlik deyil, həm də kənd turizmi inkişaf edir.

Yeniliklərdən biri də əhalinin çimərliyə gediş-gəlişini təmin etmək üçün xüsusi marşrutların ayrılmasıdır. Sumqayıt Şəhər Sərnişin Daşıma İdarəsi və "Sumqayıt Nəqliyyat" Məhdud Məsuliyyətli Cəmiyyəti çimərlikdən keçən yeni və müasir qurğularla təmin edilmiş avtobuslar ayırıb. İctimai nəqliyyata üstünlük verənlərin əksəri avtomobil sahibidir. Amma isti qumun üstündə piyada gəzməyin də xeyri var.

Bir sözlə, çimərlikdə yerləşən bütün iaşə obyektləri mövsümə hazırlaşıb. Çimərlikdə şirniyyat və isti yeməklərin çeşidlənməsində sellofandan istifadə edilmir. Yay mövsümündə ərazinin təmiz saxlanılması və tullantıların vaxtında daşınmasına ciddi nəzarət edilir. Sumqayıt Şəhər Təmizlik Depatamenti Məhdud Məsuliyyətli Cəmiyyəti və Gigiyena və Epidemiologiya Mərkəzinin əməkdaşları ərazini gün ərzində bir neçə dəfə yoxlayır, tullantının ərazidən daşınmasını təmin edirlər. Yay mövsümündə fəaliyyətini gücləndirən mərkəzlərdə çalışanların da sayı artır.

Sumqayıtın turist potensialı bir neçə on min nəfərə hesablanıb. Yaxın gələcəkdə bu rəqəm on minlərlə ola bilər. Hazırda bu istiqamətdə işlər davam edir.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

# Heyvandarların yem problemi yoxdur

Leriklilərin əsas məşğuliyyəti hələ qədim zamanlardan heyvandarlıq və əkinçilik olmuşdur. Burada elə adam tapmaq çətindir ki, heç olmasa bir neçə baş mal-qara saxlamasın. Bu, onların sosial həyat şəraitində, yaşam tərzində də özünü göstərir. Zəhmətlə böyütdükləri mal-qara onların əsas gəlir mənbəyidir. Lazım olanda kəsib yeyir, qonağını-qarasını, xeyir-şərini yola verir və ya satıb pul edirlər.



Hazırda Lerikdə 36,8 min baş qaramal, 111,7 min baş davar var. Qeyd edək ki, Kənd Təsərrüfatı Nazirliyinin Damazlıq-Qoyunçuluq Təsərrüfatı rayonun Pirəsora kəndində yerləşdiyindən elə bu yaşayış məntəqəsinin də adını daşıyırdı. Bu yaxınlarda adı dəyişdirilərək "Lerik Kənd Təsərrüfatı İstehsalat İdarəsi" MMC olmuşdur. Uzun illərdən bəri təsərrüfatın qoyunları Biləsuvar və Neftçala rayonları ərazilərindəki yataqlarda qışlayır. Lakin son 2 ildə həmin rayonlarda pambıq əkinlərinin genişləndirilməsi ilə bağlı təsərrüfatın otlaq sahəsi xeyli məhdudlaşdırılmışdır.





El arasında belə bir deyim var: "İnəyin südü onun ağzındadır", yəni inəyin yemi bol olanda südü çox olur. Elə ona görə də Lerikdə yem tədarükü mütəşəkkil aparılır. Əhalinin öhdəsində olan 16 min 43 hektar torpaq sahəsinin 3 min 463 hektarı biçənəklərdir. Həmin sahələrdəki ot tərkibinə görə çox keyfiyyətlidir. Belə ki, dağ yerində bitən cürbəcür otlar, çiçəklər onu heyvanlar üçün daha faydalı edir.

Orand, Nüravud, Şingədulan, Züvüs, Əliabad, Livədirgə, Molalan və digər kənd inzibati ərazi nümayəndəliklərində ot biçini vaxtında aparılmışdır. Biçilən otun keyfiyyəti itməsin deyə talvar altına yığılmışdır. Mütəxəssislərin hesablamalarına görə, qış dövrü üçün rayon üzrə orta hesabla 73,1 min ton qaba yem lazımdır. Bu da 1 baş qaramal heyvan üçün 1,8 ton yem vahidi deməkdir. Bu gün həmin yemin 15-20 faizi Biləsuvar, Salyan, Neftçala fermerlərinin yetişdirdikləri yonca hesabına yaranır. Heyvandarlar həmin rayonlardan gətirilən 1 yonca tayasını orta hesabla 3 manata alırlar.

Bundan əlavə, rayonda qüvvəli yem üçün 104 hektarda arpa, 76 hektarda çovdar əkilmişdir. Buğda əkilmiş 2 min 698 hektar sahənin, habelə arpa və çovdar sahələrinin bəlimi də biçindən sonra yığılaraq mal-qara üçün qış aylarına saxlanılacaqdır.

Bir sözlə, Lerik rayonunun təcrübəli heyvandarları qışa indidən ciddi hazırlıq görürlər. Qışa hazırlıq işlərini yayda görənləri qış sərt keçsə belə qorxutmur.

***S.CAVADOV,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

# Ənənələr qorunur, uğurlar silsiləsi davam edir

## *Göyçayın təhsil sistemi yeni inkişaf dövrünü yaşayır*

Son illər ölkənin təhsil sistemində müşahidə edilməkdə olan uğurlar hər kəsə məlumdur. Şübhəsiz ki, əldə olunan müsbət nəticələrdə respublikamızın hər bir təhsil qurumunun bu və ya digər dərəcədə payı var. O cümlədən bölgələrimiz də proseslərdən kənarda qalmır. Mövcud inkişafda özünəməxsus xidmətləri olan qurumlar arasında Göyçay Rayon Təhsil Şöbəsi də seçilir.

Xüsusilə qeyd etmək lazımdır ki, istər dövlət vəsaiti, istərsə də Heydər Əliyev Fondunun təşəbbüsü ilə ölkəmizdə təhsil sisteminin inkişafı, ən müasir məktəblərin tikintisi və əsaslı təmiri, müasir avadanlıqlarla təminatı baxımından mühüm işlər icra edilib. Bu sahədə Göyçay rayonunda təhsil sisteminin inkişafı üçün görülən tədbirlər də qeyd olunmalıdır. Şübhəsiz ki, atılan məqsədyönlü addımlar rayonda yeni məktəblər şəbəkəsini daha da gücləndirib. Paralel olaraq şagirdlərin hərtərəfli inkişafı üçün şəraitin təmin olunmasına böyük köməklik göstərib. Fond hesabına rayonda görülən işlərin miqyası genişdir.

Rayon təhsil şöbəsinin müdiri Elnur İsmayılov deyir ki, Göyçayda fəaliyyət göstərən şahmat məktəbi ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə tikilib istifadəyə verilmişdi. Tikintidən keçən 30 il ərzində məktəbdə heç bir əsaslı təmir işləri aparılmadığı üçün vəziyyəti arzuolunmaz şəkildə idi. 2015-ci ildə Heydər Əliyev Fondunun təşəbbüsü ilə şahmat məktəbi yenidən tikilib istifadəyə verilib. Göyçay Şahmat məktəbinin yenidən istifadəyə verilməsi vaxtı ilə beynəlxalq yarışlarda ölkəmizi uğurla təmsil edən Fənarə Babayeva, Məhəmməd Zülfüqarlı və başqalarının ardıcıllarının yetişəcəyindən xəbər verir.

Göyçayda fəaliyyət göstərən İnternat tam orta məktəbi regionda əqli və fiziki cəhətdən qüsurlu uşaqlar üçün nəzərdə tutulmuşdur. Məktəbin binası 1970-ci illərdə istifadəyə verilsə də, ötən dövr ərzində əsaslı təmir olunmamışdı. 2007-ci ildə məktəb Heydər Əliyev Fondu hesabına əsaslı təmir olunub. Ötən müddət ərzində məktəbə ətraf rayonlardan gələn şagirdlərin sayı da artıb.

Göyçayda təhsildə uğurlar qazanılması ənənəyə çevrilməkdədir. Bəs mövcud vəziyyət hansı reallığı ortaya qoyur? Ənənələr yenə də yaşayırmı? Təhsil şöbəsinin müdiri Elnur İsmayılovun sözlərinə görə, cari il ərzində Göyçay RTŞ-nin nəzdində 56 ümumtəhsil məktəbi və 2 məktəbdənkənar tərbiyə müəssisəsi fəaliyyət göstərib. Ümumtəhsil məktəblərinin 844 sinif komplektində 15 min 988 nəfər şagird təhsilə cəlb edilib və onların təlimi ilə 2061 nəfər müəllim məşğul olub.



Yeni dərs ili ərəfəsində Göyçay şəhər 2 nömrəli və Qaraman kənd tam orta məktəbləri əsaslı təmir edilərək şagirdlərin istifadəsinə verilib. Ərəbşahverdi kənd ibtidai məktəbi, Yeniarx kənd tam orta məktəbinin Hacağabəyli kənd sinif komplekti üçün modul tipli binalar tikilib. Hazırda Alıkənd kənd ibtidai məktəbi üçün də bu tip binanın tikintisi davam edir.

Müsahibimiz deyir ki, dərs ilində əsas diqqət "Təhsildə keyfiyyət ili" vəzifəsinin icrasına yönəldilib. Bu məqsədlə hazırlanan iş planı əsasında son 5 ildə məzunların ali məktəblərə qəbulu, son 3 ildə şagirdlərin buraxılış imtahanlarının nəticələri təhlil edilib. Məktəblər üzrə keyfiyyət və müvəffəqiyyət reytinqləri hazırlanıb, buraxılış siniflərində oxuyan şagirdlərin göstəriciləri təhlil olunub.

Son 5 ildə rayon məktəbləri üzrə məzunlardan 1522 nəfər ali məktəblərə qəbul olub.

Pedaqoji əməkdaşlıq əlaqələrinin yaradılması barədə təhsil nazirinin ilin əvvəlindən müvafiq əmri olub. Bununla bağlı Göyçay və Ağdaş rayonu pedaqoji işçilərinin birgə iştirakı ilə tədbirlər planı hazırlanaraq icraya yönəldilib. Tədbirlər planına məktəblərarası əməkdaşlıq əlaqələrinin qurulması, təhsil problemlərinə həsr edilmiş disput və "dəyirmi masa"ların təşkili, rayonlararası açıq dərslərin təşkili kimi məsələlər daxil edilib. Plana uyğun olaraq bu ilin mart ayında Ağdaş rayonunun qabaqcıl təhsil işçilərinin 11 açıq dərsi dinlənilərək təhlil edilib və "dəyirmi masa"-lar keçirilib. Elə həmin ay Göyçay rayonunun ümumtəhsil məktəblərində də 15 nəfər qabaqcıl müəllimin rayonlararası açıq dərsi dinlənilib müzakirə edilib, şəhər 1 nömrəli tam orta məktəbdə əməkdaşlıq çərçivəsində disputlar keçirilib.

Diqqətdə saxlanılan məsələlərdən biri də müsabiqə və yarışların daha keyfiyyətli təşkil olunmasıdır. Fənn olimpiadalarının rayon turunda 437 şagird qüvvəsini sınayıb. 28 şagird yarımfinala vəsiqə qazanıb, 5 nəfər respublika turunda iştirak edib. Şəhər 1 nömrəli tam orta məktəbin X sinif şagirdi Qarakişi Quluzadə və Mallı-Şıxlı kənd tam orta məktəbin IX sinif şagirdi Nihad Fərzəliyev tarix fənni üzrə III yeri tutublar.

"Ədəbiyyat biliciləri" müsabiqəsinin rayon turunda 131 nəfər şagird iştirak edib. Şəhər 6 nömrəli tam orta məktəbinin şagirdi Əli Həmzəyev müsabiqənin respublika turunda qalib olub.

Ulu öndər Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü münasibətilə keçirilən "Ən yaxşı təqdimat" müsabiqəsinin rayon turunda isə 57 təqdimat dinlənilib. Şəhər 1 nömrəli tam orta məktəbin X sinif şagirdi Qarakişi Quluzadə rayon turunun qalibi kimi respublika turunda müvəffəqiyyətlə iştirak edərək III yeri tutub.

"Əlaçı" televiziya verilişinin Şirvan şəhərində keçirilən seçim turunda 30 şagird iştirak edib. Turda qalib gələn şəhər 5 nömrəli tam orta məktəbin şagirdi Lamiyə Süleymanova, Kürdşaban kənd tam orta məktəbin şagirdi Rəna Soltanova və Qarabaqqal kənd tam orta məktəbin şagirdi Yusif Səmədzadə verilişdə iştirak ediblər.

"Şahin" hərbi idman oyunlarının rayon turu əvvəlki illərlə müqayisədə cari ildə daha keyfiyyətli təşkil edilib. Turun qalibi şəhər 7 nömrəli tam orta məktəbin komandası zona turuna vəsiqə qazanıb.

Yeniyetmələr arasında Mingəçevir şəhərində keçirilən şahmat üzrə respublika birinciliyində UGİMŞ-nin yetirməsi Nihad Kərimov I yeri, Fəqan Məmmədov II yeri tutublar.

Mart ayında futbol üzrə məktəblilər arasında rayon birinciliyi təşkil edilib. Birinciliyin qalibi Ləkçılpaq kənd 2 nömrəli tam orta məktəbin komandası Qəbələ şəhərində keçiriləcək yarımfinala vəsiqə qazanıb. Şəhər 1 nömrəli tam orta məktəbin komandası isə "Gənc xilasedici və yanğınsöndürən" respublika müsabiqəsinin Yevlax şəhərində keçirilən zona turunda I yeri tutaraq finala çıxıb. Həmin məktəbin X sinif şagirdi Laçın Vəliyev Makedoniyanın paytaxtı Skopye şəhərində keçirilən yeniyetmələr arasında güləş üzrə Avropa çempionatında III yeri tutub.

"Azərpoçt" MMC-nin şagirdlər arasında keçirdiyi inşa müsabiqəsində şəhər 2 nömrəli tam orta məktəbin VIII sinif şagirdi Ülviyyə Yusifzadə qalib gələrək diplomla mükafatlandırılıb.

Diqqətdə saxlanılan məsələlərdən biri də Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə tədbirlərin keçirilməsi olub. Tədbirlər planına uyğun olaraq ümumtəhsil məktəblərində stend və guşələr hazırlanıb. Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Göyçay Rayon Təhsil Şöbəsi ilə birlikdə məktəblilər arasında inşa yazı müsabiqəsinin keçirilməsini planlaşdırıb. Buraxılış sinfi şagirdlərinin imtahanlara hazırlığı vəziyyəti də diqqətdə saxlanılan məsələlərdən olub. Bu məqsədlə IX və XI sinif şagirdlərinin imtahanlara hazırlığı məqsədilə məşğələ saatları təşkil edilib, sınaq imtahanları keçirilib.

Bütün qeyd olunanlar Göyçay təhsilinin daim dövlət qayğısı ilə əhatə olunmasından xəbər verir. Göyçaylı şagirdlər də bunu yaxşı bilir, daha böyük uğurlar qazanmağa can atırlar.

***Əli SƏLİMOV,***
***"Azərbaycan"***

# Azərbaycan Respublikasının Energetika Nazirliyi açıq tenderə dəvət edir

**Tender 1 LOT üzrə keçirilir:**

Elektrik enerjisinin ümumi generasiya güclərində alternativ və bərpa olunan enerji mənbələrinin xüsusi çəkisinin artırılmasını, habelə alternativ və bərpa olunan enerji sahəsinə özəl investisiyaların cəlb edilməsi məqsədilə bu sahəni tənzimləyən normativ hüquqi bazanın təkmilləşdirilməsini, güzəştli tariflərin və digər təşviqedici tədbirlərin tətbiqini əhatə edən sənədlərin hazırlanması işləri.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş və imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu nazirliyin Bakı şəhəri, Heydər Əliyev prospekti, 152 ünvanında "Çinar Plaza" İş Mərkəzinə məxsus binanın 12-ci mərtəbəsində yerləşən ofisindən əldə edə bilərlər.

**Əlaqələndirici şəxs: Gülnarə Nuriyeva (telefon: 598 16 53/54 (daxili 1130), mob: +994504502085)**
**İştirak haqqı: 1000,00 manat.**
**Bank rekvizitləri: Dövlət Xəzinədarlığı Agentliyi**
**Kod: 210005**
**VÖEN:1401555071**
**M/h: AZ41NABZ01360100000000003944**
**SWİFT :CTREAZ22**
**Alan: Energetika Nazirliyi**
**VÖEN: 1300087531**
**Hesab: AZ44CTRE00000000000002218301**
**Təyinatı mütləq yazılmalıdır.**
**Təyinatı: Tenderdə iştirak haqqı**
**Energetika Nazirliyi**
**XHK 2218301**
**Büdcə səviyyəsinin kodu: 7**
**İqtisadi təsnifat: 142340**

İştirak haqqı heç bir halda geri qaytarılmır. İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 5 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 18.07.2018-ci il il saat 12:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 31.07.2018-ci il saat 11:00-a qədər nazirliyin Bakı şəhəri, Heydər Əliyev prospekti, 152 ünvanında "Çinar Plaza" İş Mərkəzinə məxsus binanın 13-cü mərtəbəsində yerləşən ofisinə (ümumi şöbəyə) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 01.08.2018-ci il saat 15:00-da nazirliyin Bakı şəhəri, Heydər Əliyev prospekti, 152 ünvanında "Çinar Plaza" İş Mərkəzinə məxsus binanın 12-ci mərtəbəsində yerləşən ofisində açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

*Tender komissiyası*

# B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyində 4 LOT üzrə - dəftərxana ləvazimatlarının (LOT 1), təsərrüfat mallarının (LOT 2), işlək materialların (LOT 3) və avadanlıqlara xidmət işlərinin (LOT 4) satın alınması ilə əlaqədar elan olunmuş açıq tenderdə iştirak edən iddiaçıların təklifləri qiymətləndirilmişdir.

Tender komissiyasının qərarına əsasən, LOT 1, LOT 2 və LOT 3 üzrə "KUR-H" MMC və LOT 4 üzrə "ORQTEX SERVİS" MMC qalib elan edilmiş və bu MMC-lərlə satınalma müqavilələri bağlanmışdır.

*Tender komissiyası*

## AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ BAKI DÖVLƏT UNİVERSİTETİ MARTIN LÜTER ADINA HALLE-WİTTENBERG UNİVERSİTETİ (MLU) ilə birlikdə imzaladığı müqaviləyə əsasən

*fəlsəfə doktoru elmi dərəcəsini almaq üçün ikili diplom proqramı çərçivəsində 5608.01 Mülki hüquq, sahibkarlıq hüququ, ailə hüququ, beynəlxalq xüsusi hüquq ixtisası üzrə 2 yer olmaqla əyani doktoranturaya*

***qəbul elan edir***

Sənəd qəbulu 08.06.2018-ci il tarixdən 28.06.2018-ci il tarixədək BDU-nun Magistratura və doktorantura şöbəsində aparılacaqdır. Qəbul qaydaları haqqında məlumatı www.bsu.edu.az internet səhifəsindən əldə etmək olar.

**Əlaqə telefonu: +994 12 5100051**

*Rektorluq*

# ELAN

"İstehlak bazarına nəzarət, standartlaşdırma, metrologiya və əqli mülkiyyət hüquqları obyektlərinin mühafizəsi sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 20 aprel 2018-ci il tarixli 5 nömrəli sərəncamı ilə Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi ləğv edilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 319s nömrəli sərəncamı ilə Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin ləğv edilməsi məqsədilə Ləğvetmə komissiyası yaradılmışdır.

Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin kreditor borcları olan hüquqi və fiziki şəxsləri öz tələblərini 18 may 2018-ci il tarixdən 18 iyul 2018-ci il tarixədək Ləğvetmə komissiyasına bildirə bilərlər.

**VÖEN: 1400386271**
**Hüquqi ünvan: AZ1147, Bakı şəhəri, Nəsimi rayonu, Mərdanov qardaşları küçəsi, 124**
**Əlaqə telefonu: (012) 449-99-59 (daxili 121)**

*Ləğvetmə komissiyası*

*Təkrar*

# Talassemiya Mərkəzi Publik hüquqi şəxsi 2018-ci il üzrə dövlət büdcəsi vəsaiti hesabına inventarların satın alınması məqsədilə potensial imkanlara (işçi qüvvəsinə, təcrübəyə, aidiyyəti ixtisasa, maliyyə və texniki imkanlara) malik olan hüquqi və fiziki şəxsləri *açıq tenderə dəvət edir*

**Tender 1 LOT üzrə keçirilir.**

**Tenderin predmeti:**

LOT 1 - Mebel dəstləri və sair tibbi inventarlar.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün iddiaçılar lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər lotlar üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş hər bir lot üzrə əsas şərtlər toplusunu Talassemiya Mərkəzi Publik hüquqi şəxsin inzibati binasının yerləşdiyi Bakı şəhəri, Nərimanov rayonu, Fətəli Xan Xoyski küçəsi, 128 ünvanından ala bilərlər. Əlaqələndirici şəxs: Bəturə Yusif qızı Əliyeva. Tel: 564-82-56

LOT 1 - **400 manat**

**İştirak haqqı aşağıdakı hesaba köçürülməlidir:**
**Talassemiya Mərkəzi PHŞ**

| | |
|---|---|
| **VÖEN:** | 1501447111 |
| **H/h:** | AZ 26CTRE00000000000008417701 |
| **Fond-7** | |
| **Nərimanov rayonu 7 Saylı Xəzinədarlıq İdarəsi** | |
| **Bank:** | ABB Nərimanov filialı |
| **VÖEN:** | 9900001881 |
| **KOD:** | 805540 |
| **M/h:** | AZ03NABZ01350100000000002944 |
| **SWIFT:** | İBAZAZ2X |

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərfin açıldığı gündən ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 2 (iki) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra 60 bank günü ərzində qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olub-olmaması barədə vergi orqanı tərəfindən verilmiş arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir il ərzində maliyyə vəziyyəti barədə bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin surəti, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müqaviləni yerinə yetirmək üçün potensial imkanları (iddiaçının ixtisasına dair məlumatlar, işlərin keyfiyyətinə dair zəmanət) haqqında məlumat;*
- *tender komissiyasının tələb etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi, bank təminatı istisna olmaqla) 4 iyul 2018-ci il saat 17:00-a qədər tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 13 İyul 2018-ci il saat 17:00-a qədər Talassemiya Mərkəzi Publik hüquqi şəxsə (ünvan: Nərimanov rayonu, Fətəli Xan Xoyski küçəsi, 128 Tel: 564-29-97) təqdim etməlidirlər.

Gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

Tender təklifləri olan zərflər 16 iyul 2018-ci il tarixdə saat 12:00-da Talassemiya Mərkəzi Publik hüquqi şəxsin ofisində açılacaqdır.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq keçiriləcəkdir.

***Tender komissiyası***

# ELAN

"Azərmaş" Açıq Səhmdar Cəmiyyəti səhmdarlarını Bakı şəhəri Yasamal rayonu, Yeni Yasamal, Xarici dairəvi yol 4 ünvanında yerləşən inzibati binasında 30 iyun 2018-ci il tarixində, saat 10:00-da keçiriləcək "Azərmaş" Açıq Səhmdar Cəmiyyəti səhmdarlarını növbəti ümumi yığıncağa dəvət edir.

**Aşağıdakı məsələlər ümumi yığıncağın gündəliyinə daxil edilmişdir:**

1. *Cəmiyyətin illik hesabatının, balansının, mənfəət və zərər hesablarının təsdiq olunması;*
2. *Cəmiyyətin maliyyə vəziyyətinin müzakirə edilməsi.*

*"Azərmaş" Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyi*

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

Azercell

## abunəçilərinin nəzərinə

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 09-10.06.2018-ci il tarixlərində Ordubad rayonunda gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.

## Fövqəladə Hallar Nazirliyinin mütəxəssisləri zəlzələ bölgəsində sosial obyektlərə və evlərə baxış keçirir

İyunun 5-də axşam respublikamızın şimal-qərb bölgəsində baş vermiş 6 bal gücündə zəlzələ nəticəsində dəymiş ziyanı müəyyənləşdirmək məqsədilə Fövqəladə Hallar Nazirliyinin mütəxəssisləri, həmçinin rayonların fövqəladə hallar komissiyaları və aidiyyəti qurumlar tərəfindən zərər çəkmiş ərazilərdə araşdırmalara başlanılıb.

Zaqatala və Qax rayonlarının fövqəladə hallar komissiyalarından AZƏRTAC-ın bölgə müxbirinə bildiriblər ki, araşdırmalar rayonların əksər yaşayış məntəqələrini əhatə edəcək. İlk növbədə, sosial təyinatlı obyektlərə, o cümlədən uşaq bağçaları, təhsil, səhiyyə və mədəniyyət obyektlərinə, həmçinin 2012-ci il zəlzələsində qəzalı vəziyyətə düşmüş binalara baxış keçirilir. Daha sonra vətəndaşların müraciətləri əsasında zərər dəymiş fərdi evlərə baxılacaq. Araşdırmalar başa çatdıqdan sonra təmir, bərpa və gücləndirməyə ehtiyacı olan sosial obyektlər və fərdi evlər müəyyənləşdiriləcək.

## Merkel: "Avropa İttifaqı BMT TŞ-nin daimi üzvü olmalıdır"

AFR Kansleri Angela Merkel ayrı-ayrı dövlətlərin - Fransa və Böyük Britaniyanın əvəzinə BMT Təhlükəsizlik Şurasının (TŞ) daimi üzvü statusunun Avropa İttifaqına (Aİ) verilməsinə nail olmağa çağırmışdır. Bu barədə "Alman dalğası" radiostansiyası xəbər verir. "Yaşadığımız dövrdə BMT TŞ-dəki yerlərin avropalaşdırılması qiymətsiz olardı" - deyə Almaniya hökumətinin başçısı Münxendə Avropa Parlamentindəki Avropa Xalq Partiyası fraksiyasının iclasında çıxış edərkən bildirmişdir.

Merkel hesab edir ki, ABŞ Prezidenti Donald Trampın İkinci Dünya müharibəsindən sonra yaranmış dünya nizamını dağıtması fonunda Aİ daha sıx birləşməli və öz inkişafında dayanmamalıdır. ABŞ-ın NATO-dakı fikir ayrılıqları, Trampın iqlim üzrə Paris sazişindən və İranla sövdələşmədən çıxması, habelə transatlantik ticarət əməkdaşlığı haqqında münaqişə dünya nizamının yenidən təşkilinə dəlalət edir. Kansler əmindir ki, belə bir vəziyyətdə Aİ özünə yeni və daha qətiyyətli rol tapmalıdır.

"Avropa qlobal oyunçu olmaq istəyirsə, qlobal oyunçu kimi də hərəkət etməlidir" - deyə Merkel vurğulamışdır. O, əlavə etmişdir ki, bu cür mövqe daha çox səy, cəsarət və qətiyyət, habelə maliyyə yatırımı tələb edir.

## İspaniya hökuməti and içdi

Baş nazir Pedro Sançesin təşkil etdiyi İspaniya hökuməti Madriddə and içmişdir. Mərasimdə İspaniya Kralı VI Filip iştirak etmişdir. Bu barədə "İnterfaks" agentliyi xəbər verir.

Yeni kabinetdə 17 nazir yer almışdır. Onların 11-i qadındır. Baş nazirin müavini vəzifəsini hüquq bərabərliyi işləri üzrə nazir Karmen Kalvo tutmuşdur. Jozep Borrel Xarici İşlər Nazirliyinə başçılıq edəcək. Müdafiə naziri vəzifəsinə Marqarita Robles, daxili işlər naziri vəzifəsinə Fernando Qrande, ədliyyə naziri vəzifəsinə Dolores Delqado təyin edilmişlər. İqtisadiyyat Nazirliyinə Nadia Kalvinio başçılıq edəcək. Astronavt Pedro Duke elm və innovasiyalar naziri təyin olunmuşdur.

Xatırladaq ki, İspaniya parlamenti ötən cümə günü Mariano Raxoy hökumətinə etimadsızlıq göstərdikdən sonra Pedro Sançes yeni hökuməti formalaşdırmaq imkanı əldə etmişdir. Bir qədər sonra Raxoy 2000-ci illərin əvvəllərindən bəri rəhbərlik etdiyi İspaniya Xalq Partiyasının sədri vəzifəsindən də istefa vermişdir.

## Qvatemalada vulkan püskürməsindən ölənlərin sayı 99-a çatdı

Qvatemalada Fueqo vulkanının püskürməsi nəticəsində ölənlərin sayı 99 nəfərə çatmışdır. Bu barədə TASS agentliyi xəbər verir.

Məlumata görə, itkin düşənlərin sayı 190-dan çoxdur. İndiyədək ən güclü püskürmənin fəsadları 1,7 milyon adama toxunmuşdur. Ölkədə üçgünlük matəm elan edilmişdir.

Vulkanın yaxınlığında yerləşən San-Migel-Los-Lotes kəndi lava, palçıq və daş qatı altında qalmışdır. Hazırda kəndin onlarca sakininin taleyi məlum deyil.

## Bağdadda partlayış

İraqın paytaxtı Bağdadın şərqində yerləşən Mədinə əs-Sədr rayonunda baş vermiş partlayış nəticəsində 10 nəfər həlak olmuş, 93 nəfər yaralanmışdır. Yaralıların azı 20-si xəstəxanalara yerləşdirilmişdir. Bu barədə "RİA Novosti" agentliyi xəbər verir. Öz növbəsində, İranın "Press TV" agentliyi xəbər verir ki, Bağdadda döyüş sursatı anbarında baş vermiş partlayış zamanı azı 18 nəfər həlak olmuş, 90 nəfərdən çox adam yaralanmışdır.

Bildirilir ki, döyüş sursatı məsciddə saxlanılırmış və onu yaxınlıqdakı avtomobilə daşıyarkən partlayış baş vermişdir.

Məlum olduğu kimi, Mədinə əs-Sədr rayonunda dini lider Muqtəda Sədri dəstəkləyən şiə icması yaşayır.

# ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, deputatlar, parlament aparatı və işlər idarəsinin kollektivləri aparatın Analitik informasiya şöbəsinin müdiri Aydın Ağayevə atası

**MİRZƏLİ AĞAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclis Aparatı Sosial qanunvericilik şöbəsinin müdiri Adilə Abasova və şöbənin əməkdaşları Mehdi Qurbanov, Adil Vəliyev, Natiq Heydərov, Sevinc Rəhimova, Gülarə İbrahimova, Təranə Qurbanova, Həsən Şirinov, Tural Kazımzadə və Tamerlan Həsənzadə aparatın Analitik informasiya şöbəsinin müdiri Aydın Ağayevə atası

**MİRZƏLİ AĞAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclis Aparatı İnzibati və hərbi qanunvericilik şöbəsinin müdiri Nizami Səfərov və şöbənin əməkdaşları Səyyad Kərimov, Eldar Əsgərov, Elmir Vəliyev, Ziya Səmədov, Tamerlan Şeyxzamanov, Ramin Cəlilov, Lalə Baloğlanova, Elnur Nuriyev, Kamalə Paşayeva, Tural Tağıyev, Elçin İsmayıl, Mahir Süleymanlı və Mətanət Qənbərova aparatın Analitik informasiya şöbəsinin müdiri Aydın Ağayevə atası

**MİRZƏLİ AĞAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclis Aparatı Analitik informasiya şöbəsinin əməkdaşları Ramil İsaqov, İlham Həsənov, Anar Əkbərov, Sevda Abdullayeva, Lalə Həsənova, Müjgan İbrahimli və Mətanət Mirkişiyeva şöbənin müdiri Aydın Ağayevə atası

**MİRZƏLİ AĞAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclis Aparatı Vətəndaşların qəbulu və müraciətləri ilə iş şöbəsinin müdiri İbrahim Yusifzadə və şöbənin əməkdaşları Emil Tağıyev, Rüfət Məmmədov, Fuad Piriyev, Anar Vəliyev, Səid Müslümov, Samir Ələkbərov, Cavid İskəndərov, Rauf Əliyev və Sənəm Xəlilova aparatın Analitik informasiya şöbəsinin müdiri Aydın Ağayevə atası

**MİRZƏLİ AĞAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İradə Gülməmmədova və Abşeron Rayon İcra Hakimiyyəti Başçısı Aparatının kollektivi general-leytenant Rövşən Əkbərova qardaşı

**ELŞƏN ƏKBƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Azərişıq" ASC-nin sədri Baba Rzayev və cəmiyyətin kollektivi Toğrul Rəhimov və Rövşən Əkbərova əzizləri

**ELŞƏN ƏKBƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ənvər Seyidov ailəsi ilə birlikdə Bakı Apelyasiya Məhkəməsinin hakimi Xumar Mərdanovaya həyat yoldaşı

**İSRAFİL HÜSEYNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradov və universitetin kollektivi general-leytenant Rövşən Əkbərova qardaşı

**ELŞƏN ƏKBƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-63-82,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 8735
Sifariş 1677